Bu bir xalq qəzetidi
ƏDALƏT

## Şəhər poliklinikaları iki hissəyə bölünəcək



*Şəhər poliklinikaları iki hissəyə bölünəcək. İlkin səhiyyə xidməti göstərənlər bir poliklinikada, dar ixtisas sahibləri isə digərində cəmləşəcək.*

*Bunu Kliniki Tibbi Mərkəzin direktoru Könül Ələkbərov deyib. Onun sözlərinə görə, burada əsas məsələ sahə prinsipinə əməl olunmasıdır. Belə ki, sahə pediatrları, terapevtlər və digərlərinə əlçatanlığın təmin olunması üçün onlar inzibati ərazi üzrə bərabər bölüşdürüləcək:*

*"Ailə Sağlamlıq Mərkəzi olmağa uyğun olmayan poliklinikalarda isə dar ixtisas sahibləri birləşəcək və öz rayonları üzrə tibb mərkəzlərinə tabe olacaqlar. O cümlədən Səbail, Yasamal və Nəsimi rayonlarının ərazisində yerləşən poliklinikaların dar ixtisas həkimləri Kliniki Tibbi Mərkəzə tabe ediləcək".*

## "Bandotdel"dən əməliyyat: 5 nəfər saxlanıldı



**Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi tərəfindən silahlı şəxslər saxlanılıb.**

DİN Mətbuat xidmətindən Adalet.az-a verilən məlumata görə, qanunsuz olaraq silah-sursat saxlayan, paytaxt sakini, əvvəllər məhkum olunmuş Söhrab Əhmədzadə Suraxanı rayonu ərazisində saxlanılıb. Onun üzərinə baxış zamanı 1 ədəd "Beretta" markalı tapança, 1 ədəd həmin silaha aid sandıqca və 4 ədəd patron aşkar olunub.

Qanunsuz olaraq üzərlərində və yaşadıqları evlərdə odlu silah-sursat saxlayan 4 nəfər saxlanılıb. Əməliyyat zamanı Rəşid Behbudov, Şöhrət Zeynalov, Həsən Qeybəliyev və əvvəllər Cinayət Məcəlləsinin 120.1 və 221.1 ci maddələri ilə məhkum olunmuş Fuad Məmmədov saxlanılıb. Bu şəxslərdən 2 ədəd "TT" markalı tapança, 3 ədəd sandıqça, 3 ədəd əl qumbarası, 1 ədəd "Sayqa" markalı avtomat silah, 1 ədəd avtomat darağı, 1 ədəd ov tüfəngi və çoxlu sayda müxtəlif çaplı patron aşkar olunaraq götürülüb.

Faktlarla bağlı Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə cinayət işləri başlanılıb və saxlanılan şəxslər tutularaq istintaqa cəlb olunublar. Cinayət işləri üzrə zəruri istintaq və əməliyyat tədbirləri davam etdirilir.

## Nazirlər Kabineti Lütfi Zadənin xatirəsinin əbədiləşdirilməsi haqqında qərar verib



**Nazirlər Kabineti görkəmli elm xadimi Lütfi Zadənin xatirəsinin əbədiləşdirilməsi haqqında qərar verib.**

**Adalet.az xəbər verir ki, bununla bağlı baş nazir Əli Əsədov qərar imzalayıb.**

**Qərara əsasən, Bakı şəhərinin Nəsimi rayonunda yerləşən Texnikihumanitar liseyə Lütfi Zadənin adı verilib. Eyni zamanda Bakı Şəhər İcra Hakimiyyəti Lütfi Zadənin Bakı şəhərində yaşadığı binaya (Əlövsət Quliyev küçəsi, 79) xatirə lövhəsinin vurulmasını təmin edəcək. Təhsil Nazirliyi bu qərardan irəli gələn məsələləri həll edəcək.**

## Hərbi pilotlarımız "Anadolu Qartalı - 2021" təlimində



**Türkiyə Respublikasının Konya şəhərində keçirilən "Anadolu Qartalı - 2021" beynəlxalq taktiki-uçuş təlimi davam edir.**

Müdafiə Nazirliyindən Adalet.az-a verilən məlumata görə, Azərbaycan Hərbi Hava Qüvvələrinin hərbi pilotları şərti düşmənin hava hücumundan müdafiə vasitələrini məhv edib və havada üstünlüyü təmin etməklə onun yerüstü hədəflərinə aviazərbələrin endirilməsi üzrə tapşırıqları uğurla icra edib.

## "ŞUŞA BƏYƏNNAMƏSİ" TARİXİ BƏYƏNNAMƏDİR

Bax:səh-2

## DƏRVİŞ YOX, SƏFƏROVİÇ PARİSİ PARTLATDI



**Avropa çempionatının 1/8 finalında Fransa ilə İsveçrə qarşılaşdı. Fransa favorit sayılırdı, amma isveçrəlilər fransızlara ot yoldurdular.**

Səbəbi. Fransızlar onlara yuxarıdan aşağı baxırdı. Heç kəsə yuxarıdan aşağı baxmayın, bir gün yuxarıdan aşağı baxdıqlarınız isveçrəlilər fransızları minən kimi, minə bilərlər. Mejduproçim, fransızlar bizə də yuxarıdan aşağı baxır. Və bilmirlər ki, biz də bir gün elə isveçrəlilər kimi...

Bu bir xalq qəzetidi
www.adalet.az
ƏDALƏT
Qurucusu: Adil Minbaşıyev
Gündəlik hüquq qəzeti
Qəzet 1990-cı ilin iyulundan çıxır
№ 68 (5900) 1 iyul 2021-ci il
Qiyməti 30 qəpik

# Azərbaycandan beynəlxalq təşkilatlara çağırış



**"Nəqliyyat, rabitə və ticarətlə bağlı təşəbbüslər yeni tərəfdaşlıqlardan və imkanlardan faydalanmaq fürsəti verəcək. Gücləndirilmiş regional əməkdaşlıq inkişafı gücləndirməklə yanaşı, bölgədə hərbi alovlanma riskini azaldacaq və sülh və sabitliyi möhkəmləndirəcək iqtisadi payların yaradılmasına kömək edə bilər".**

**Adalet.az -ın xəbərinə görə, bunu xarici işlər naziri Ceyhun Bayramov QDİƏT üzv dövlətlərin Xarici İşlər Nazirləri Şurasının 43-cü iclasında çıxışı zamanı deyib.**

**"Silahlı qarşıdurmanın sona çatması ilə yaranan sülh, təhlükəsizlik və əməkdaşlıq vizyonunu reallaşdırmaq üçün QDİƏT də daxil olmaqla, beynəlxalq ictimaiyyətin maksimum səy göstərməsini gözləyirik. Azərbaycan ortaya çıxan fürsətlərin Təşkilat və ayrı-ayrı üzv dövlətləri tərəfindən lazımi səviyyədə başa düşüləcəyini və adekvat şəkildə qiymətləndiriləcəyini arzulayır", - nazir vurğulayıb.**

## Qurban bayramı ilə əlaqədar 2 gün iş olmayacaq



**İyulda Qurban bayramı ilə əlaqədar 2 gün iş olmayacaq.**

Adalet.az-ın məlumatına görə, Nazirlər Kabinetinin müvafiq qərarına əsasən iyulun 20 və 21-i ölkədə Qurban bayramı qeyd olunacaq. Həmin günlər Əmək Məcəlləsinə əsasən qeyri-iş günləri hesab edilir.

## DEYƏSƏN, HOLLANDLAR BAŞLARI İLƏ YOX, AYRI YERLƏRİ İLƏ FİKİRLƏŞİRMİŞLƏR



*Hollandiyanın adı sarsaq-sarsaq şeylərlə hallandığına görə məcbur olub adlarını dəyişib Niderland elədilər. Bir yaxşı məsəl var, bir qarğa tez-tez yuvasını dəyişirmiş. Soruşurlar ki, yerini niyə tez-tez dəyişirsən? Deyir ki, yuvamı batırıram. Deyirlər ki, o filan şey ki sən də var, hara getsən batıracaqsan. İndi Hollandiyanın da adı üstündədi - istəyir adını Niderland qoysun, istəyir lap Fransa, xeyri yoxdu.*

*Parlamentlərində demişdilər ki, Bakıda keçiriləcək 1/4 finala heç bir rəsmi şəxsləri getməyəcək. Səbəb də onu göstərmişdilər ki, guya Azərbaycan Ermənistan torpaqlarını işğal edib. O filan yerləri ilə fikirləşənlərin deyəsən, heç BMT-nin qəbul etdiyi sənədlərdən də, qətnamələrdən də xəbəri yoxdu.*

*Bakıda heç kəsin hollandlardan ötrü gözü uçmur. Və bir də dünyada heç bir axmaq idmana siyasət qatmır.*

*Azərbaycanda dünyamiqyaslı yarışların hamısında Ermənistan idmançıları iştirak ediblər və hətta mükafatlandırılıblar da.*

## DTX Ağdamda əməliyyat keçirib



**"Xaş-xaş-2021" şərti adlı kompleks əməliyyat-axtarış və profilaktik tədbirlər nəticəsində yabanı halda bitən narkotik tərkibli bitkilər aşkar olunub.**

Bu barədə Daxili İşlər Nazirliyinin Mətbuat xidmətinin Bərdə regional qrupundan məlumat verilib. Bildirilib ki, Ağdam Rayon Polis Şöbəsinin və Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşlarının birgə keçirdiyi əməliyyat-axtarış tədbirləri nəticəsində işğaldan azad olunmuş Əliağalı kəndi ərazisində yabanı halda bitmiş çəkisi 106 kiloqram olan 1074 ədəd çətənə kolu aşkar edilərək məhv edilib.

## ZAUR ƏHMƏD ƏMƏLLİ BAŞLI MAAŞ ALIRMIŞ Kİ...



**Dostumuz Zaur bəy belə bir status yazıb: "Yüz ilin jurnalistiyəm, bir illik qazancım Roza Zərgərlinin bir toy qonorarı qədərdir..."**

Əvvəla, Zaur bəy, sən yüz ilin yox, iyirmi ilin jurnalistisən, özü də şişirtmə dana, eloğlu. İkincisi də, Roza xanım deyir ki, bir toya 12 min manata gedir. Bunu da aya bölsək, sənin sözündən belə çıxır ki, ayda 1000 manat maaş alırsan. Bəd deyil, çox yaxşıdı.

## İNDİ DƏ PAYTAXTI KÜRDƏMİRƏ KÖÇÜRÜRÜK



*Partiyasının adını bilmirəm, maşallah, partiya çox, sədr çox, hamısını yaddaşda saxlamaq olmur. İnternetdə axtarmağa da hövsələm çatmır.*

*Hansısa partiyanın sədri Abutalıb Səmədov "Yeni Müsavat" qəzetində təklif edib ki, paytaxt Kürdəmirə köçürülsün. Çünki Bakıda zəlzələ ola bilər. Deyəsən, zəmanəmizin Nostradamusu Zirəddinin zəlzələ ilə bağlı verdiyi proqnozu oxuyub.*

*Birincisi, ay partiya sədri, dövlət Qarabağı tiksin, yoxsa paytaxtı köçürsün?*

*İkincisi, Bakı paytaxtımızdı, dünya durduqca da paytaxtımız olacaq.*

*Əvvəllər də belə təkliflər olurdu, kimi deyirdi İsmayıllıya köçürülsün, kimi deyirdi Şabrana.*

*Bir sözlə, ağzı olan konuşuyor.*

*Yeri gəlmişkən, dostum Aydın Ağazadə ilə (bakılıdı) Ağdamdayıq. Atam soruşdu ki, Aydın, biz yayda dağlara qalxırıq, bəs sizin ailə hara gedir?*

*Aydın:*

*- Məhəmməd əmi, Kürdəmirdə xalamgili olur, yayda adətən ora gedirik.*

*- Ay bala, yayda siz ən sərin yerlərdə olursunuz ki...*



**Qəzetimizin sabiq şöbə müdiri, filologiya elmləri doktoru, professor Məhəmmədəli Mustafayev Haqqın dərgahına qovuşdu.**

**Məkanı Cənnət olsun!**

## FRANSIZLAR BACILARINI AĞLAR QOYDULAR



**Fransanın prezidenti Makron deyir ki, Ermənistan bizim bacımızdı. İndi də uduzdular, bacılarını ağlar qoydular.**

## AZƏRBAYCANDA "HƏR ŞEY DAXİL" NƏ ZAMAN OLACAQ?!

Bax:səh-3

## SƏRXAN SƏRXANDI DANA



**Şamaxıda ədəbi məclis olurmuş, şairlər oturub saatla bədahətən şeir deyirmişlər. Bir Miri adlı şeir yazan varmış, söz çatır Miriyə, qalxır və bir əda ilə deyir:**

Məclisi arəstədir öz Mirisiylə...

Nə qədər edir arxasını gətirə bilmir, tez məclisdən çıxıb özünü çatdırır Sabirə, deyir ölmüşəm məni yerdən götür. Sabir:

**- Nə demisən?**

**- Məclisi arəstədir öz Mirisiylə...**

Sabir:

**- Get denən: Miridir də, qələt edib həm ölüsü, həm dirisiylə.**

Düzdür, Sabir bir az da sərt deyib, biz yazmırıq. İndi Sərxan Sərxandı də... Boş verin getsin.

## Kanadada anomal istilərdən 30 nəfər öldü



**Kanadanın Bernabi şəhərində son iki gündə davam edən istilərdən, təxminən 30 nəfər ölüb.**

Adalet.az xəbər verir ki, bu barədə CBC kanalı Kanada polisəinə istinad məlumat yayıb.

Meteoroloji xidmət Britaniya Kolumbiyasında rekord temperature nəticəsində qəfil ölüm hallarının qeydə alındığını açıqlayıb.

Ən yüksək temperatur bazar və bazar ertəsi baş verib. 28 iyun tarixində Vankuverdən 150 km aralıda yerləşən Lytton şəhərində havanın temperature maksimum həddə çataraq 47.9 C0-yə çatıb. Ölənlərin çoxu yaşlı insanlardır. Ölkənin qərbində həddindən artıq isti hava şəraiti ilə əlaqədar əhaliyə xəbərdarlığı edilib.

## GÜNÜN LƏTİFƏSİ



Elman Nəsirov görür ki, bir kişi alma çərdəyi satır, yaxınlaşıb:

**- Bu nədi, alma çərdəyi satırsan?**

Kişi:

**- Bəs bilmirsiniz alma çərdəyi intellekti artırır. 20 manat ver, on dənəsini götür ye.**

Elman müəllim 20 manat verir və on çərdək alıb yeyir. Bir-iki dəqiqədən sonra:

**- Ay da, 20 manata 10 kilo alma alsaydım çərdəyi bundan çox olardı.**

Kişi:

**- Bax gördün, iki dəqiqəyə necə təsir elədi. Tez düşünməyə başladın. 20 manat ver, 10 dənəsində al ye...**

# İlham Əliyev Dövlət Agentliyinə 2,1 milyon manat ayırdı



**Prezident İlham Əliyev Bakı şəhərinin Qaradağ rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb.**

Bununla bağlı AZƏRTAC məlumat yayıb.

Sərəncama əsasən, Bakı şəhəri Qaradağ rayonunun Ələt, Korgöz və Lökbatan qəsəbələri ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi məqsədilə "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.1.14-cü yarımbəndində göstərilmiş məbləğin 2,1 milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb.

# "Zəngəzur dəhlizi mühasirədə olan Naxçıvanı Azərbaycanla birləşdirəcək"



**"Üçtərəfli Bəyanata uyğun olaraq, silahlı qarşıdurmanın sona çatması ilə Azərbaycan münaqişədən sonrakı bərpa, yenidənqurma və reinteqrasiya mərhələsinə qədəm qoyub. Münaqişədən sonrakı dövrdə sülh, bərpa və yenidənqurma fəaliyyətlərinin davam etdirilməsi və məcburi köçkünlərin qayıtması Azərbaycan üçün mütləq prioritetdir". Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən Adalet.az-a verilən xəbərə görə, bunu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov QDİƏT-ə üzv dövlətlərin Xarici İşlər Nazirləri Şurasının 43-cü iclasında çıxışı zamanı deyib.**

Nazir bildirib ki, hökumət ərazilərin kütləvi məhv edilməsi ilə müşayiət olunan onilliklərdir davam edən işğalın nəticələrinin aradan qaldırılmasına yönəlmiş əməli addımlar atmağa başlayıb: "Yenidənqurma prosesində "yaşıl enerji", "ağıllı şəhər və ağıllı kənd" anlayışları, dairəvi iqtisadiyyat prinsipləri ilə yanaşı, sənət texnologiyaları da tətbiq ediləcək. Tərəfdaş ölkələrin səylərimizi investisiyalar və texniki əməkdaşlıq yolu ilə dəstəkləmək marağını qiymətləndiririk".

XİN başçısı qeyd edib ki, münaqişənin həlli eyni zamanda regional əməkdaşlıq, inkişaf və tərəqqi üçün yeni perspektivlər açır: "10 Noyabr 2020-ci il birgə bəyanatı, bölgədə kommunikasiyaların açılmasını nəzərdə tutan 11 yanvar 2021-ci il tarixli üçtərəfli Azərbaycan-Rusiya-Ermənistan bəyanatı ilə tamamlandı. Bu tədbirlərin həyata keçirilməsi QDİƏT regionunun mühüm hissəsinin - Cənubi Qafqazın mənzərəsini əhəmiyyətli dərəcədə dəyişdirəcək. Azərbaycan və Türkiyə arasındakı yeni əlaqə zolağı olan Zəngəzur dəhlizi təxminən otuz ildir ki, mühasirədə olan Naxçıvan eksklavını Azərbaycan ilə birləşdirməklə yanaşı, əlavə olaraq mövcud ticarət və nəqliyyat əlaqəsinə xidmət edəcək.

Kommunikasiyaların bərpası bütün bölgə üçün uduşlu bir vəziyyətdir və daha geniş Qara dəniz coğrafiyasının əhəmiyyətini artıracaq.

Nəqliyyat, rabitə və ticarətlə bağlı təşəbbüslər yeni tərəfdaşlıqlardan və imkanlardan faydalanmaq fürsəti verəcək. Gücləndirilmiş regional əməkdaşlıq inkişafı gücləndirməklə yanaşı, bölgədə hərbi alovlanma riskini azaldacaq və sülh və sabitliyi möhkəmləndirəcək iqtisadi payların yaradılmasına kömək edə bilər".

C. Bayramov vurğulayıb ki, silahlı qarşıdurmanın sona çatması ilə yaranan sülh, təhlükəsizlik və əməkdaşlıq vizyonunu reallaşdırmaq üçün QDİƏT də daxil olmaqla, beynəlxalq ictimaiyyətin maksimum səy göstərməsini gözləyirlər: "Azərbaycan ortaya çıxan fürsətlərin Təşkilat və ayrı-ayrı üzv dövlətləri tərəfindən lazımi səviyyədə başa düşüləcəyini və adekvat şəkildə qiymətləndiriləcəyini arzulayır".

## Aİ Azərbaycanla yeni hərtərəfli saziş imzalamağa hazırdır

***Avropa İttifaqı (Aİ) Azərbaycanla yeni hərtərəfli saziş imzalamağa hazırdır.***

***Bunu Trend-ə özəl müsahibəsində Aİ-nin Azərbaycandakı nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas deyib.***

***Onun sözlərinə görə, bu sazişlə bağlı tərəflər arasında danışıqlar 2017-ci ildə başlayıb:***

***"Aİ ilə Azərbaycan arasında hərtərəfli sazişin imzalanması ticarət dövriyyəsinin artmasına xidmət edəcək. Sənədin mətni artıq hazırdır. Azərbaycan Ümumdünya Ticarət Təşkilatının (ÜTT) üzvü olmadığı üçün ticarətlə bağlı bəzi məsələlər açıq qalır. Mən sənədin imzalanmasının konkret müddətini deyə bilmərəm, amma bu saziş bizim münasibətlərimizi və iqtisadiyyatı daha da yaxşılaşdırmağa imkan verəcək". K.Yankauskas qeyd edib ki, Aİ Azərbaycanın ÜTT-yə üzv olmasını, eləcə də iqtisadi şaxələndirməni dəstəkləyir. Onun sözlərinə görə, bütün bunlardan başqa, Aİ ölkələrinin vətəndaşları üçün vizaların ləğv olunması Azərbaycana turist axınının artmasına xidmət edəcək.***

# "Azərbaycan bizim üçün əvəzedilməz rol oynayır"

**Milli Məclisin Sədri Sahibə Qafarovanın rəhbərliyi ilə parlament nümayəndə heyətinin Macarıstanın paytaxtı Budapeşt şəhərinə rəsmi səfəri başa çatıb. İyunun 28-dən başlayan səfər çərçivəsində Milli Məclis Sədrinin və nümayəndə heyəti bir sıra rəsmi görüşlər keçirib, tədbirlərdə iştirak edib.**

Səfər çərçivəsində S. Qafarova Macarıstana rəsmi səfəri çərçivəsində bu ölkənin Baş naziri Viktor Orbanla görüşüb. Baş nazir qarşılıqlı səfərlərin əhəmiyyətli olduğunu vurğulayıb və əmin olduğunu bildirib ki, bu səfər ölkələrimiz arasındakı münasibətlərin inkişafına öz töhfəsini verəcəkdir. İki ölkənin qanunverici orqanları arasında münasibətlərin də inkişaf etdiyini bildirən Viktor Orban dostluq qruplarının fəaliyyətini təqdir edib. Baş nazir bildirib ki, Macarıstan dost ölkə olan Azərbaycanla münasibətlərin inkişafına böyük önəm verir. Bu gün ölkələrimiz arasında siyasi, iqtisadi, mədəni, humanitar sahələrdə əməkdaşlıq yüksələn xətlə inkişaf edir. Macarıstanla Azərbaycan arasında enerji sahəsində də geniş əməkdaşlıqdan danışan Viktor Orban qeyd edib ki, Azərbaycan enerji təhlükəsizliyinin təmin olunmasında bizim üçün əvəzedilməz rol oynayır.

Öz növbısində S. Qafarova bildirib ki, Azərbaycan onun müstəqilliyini ilk tanıyan ölkələrdən biri olan Macarıstanla hərtərəfli əməkdaşlığın inkişafına böyük əhəmiyyət verir. Dövlət müstəqilliyimizin bərpasından sonra iki ölkə arasında siyasi əlaqələr yeni səviyyəyə yüksəlib. Şübhəsiz ki, münasibətlərimizin bu səviyyəyə çatmasında Prezident İlham Əliyevlə sizin aranızdakı şəxsi münasibətlər də böyük rol oynayıb.

Sahibə Qafarova deyib ki, ölkələrimiz arasında əməkdaşlığa dair imzalanmış hüquqi sənədlər mühüm əhəmiyyət daşıyır.





Son dövrlərdə Azərbaycanla Macarıstan arasında ticarət dövriyyəsinə dair göstəriciləri diqqətə çatdıran spiker S.Qafarova vurğulayıb ki, ticarət dövriyyəsini artırmaq üçün real potensial daha böyükdür. Sədr qeyd edib ki, Azərbaycan Cənubi Qafqazın böyük bir iqtisadi mərkəzidir. Azərbaycan enerji təhlükəsizliyi sahəsində etibarlı tərəfdaşdır və Avropaya enerji təchizatı marşrutlarının şaxələndirilməsinin təmin edilməsində mühüm rol oynayır. Bu yaxınlarda həyata keçirilmiş Trans-Anadolu Boru Kəməri (TANAP) və Trans-Adriatik Boru Kəməri (TAP) layihələri bu baxımdan böyük əhəmiyyət daşıyır. Ölkələrimiz arasında yüksək səviyyəli humanitar əlaqələrin mövcudluğundan danışan Spiker Heydər Əliyev Fondunun dəstəyi ilə Macarıstanda həyata keçirilmiş layihələrdən danışıb. Bu sahədəki xidmətlərinə görə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın Macarıstanın Ali mükafatı ilə təltif olunmasını xüsusi qeyd edib.Səfər çərçivəsində Azərbaycan parlament nümayəndə heyətinin üzvləri ölkəmizlə parlamentlərarası dostluq qrupunun üzvləri ilə görüşüblər. Macarıstan-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Attila Tilki bildirib ki, parlamentlər arasındakı münasibətlər dövlətlərarası əlaqələrimizin daha da möhkəmlənməsində mühüm rol oynayır. Bu sahədə parlamentlərarası dostluq qrupları xüsusi əhəmiyyətə malikdir. Pandemiya bitdikdən sonra qarşılıqlı səfərlərin intensivləşdirilməsinin vacibliyindən danışan dostluq qrupunun rəhbəri hər iki ölkə deputatlarının beynəlxalq təşkilatlarda yaxın əməkdaşlığından, bir-birini dəstəkləməsindən məmnunluğunu ifadə edib.

Görüşdə çıxış edən Milli Məclisin Sədri Sahibə Qafarova diqqətə çatdırıb ki, Azərbaycan Macarıstanla mövcud parlamentlərarası əlaqələrin inkişafına böyük əhəmiyyət verir. Milli Məclisdə Macarıstanla parlamentlərarası əlaqələr üzrə dostluq qrupu fəaliyyət göstərir. İnanıram ki, deputatlarımız bu əməkdaşlıq ənənəsini beynəlxalq parlament təşkilatları çərçivəsində də bundan sonra da davam etdirəcəklər. Spiker Macarıstanın müşahidəçi statusuna sahib olduğu TÜRKPA - parlament ölçüsü də daxil olmaqla Türk dünyası ilə artan əməkdaşlıq tendensiyasından məmnunluğunu bildirib.

Qeyd edib ki, beynəlxalq təşkilatlardakı nümayəndə heyətlərimiz arasındakı qarşılıqlı dəstək və tərəfdaşlıq ölkələrimizin mövqelərinin möhkəmlənməsinə xidmət etməyə davam edəcək.

**Milli Məclisin Sədri Macarıstan hökumətinə, macarıstanlı deputatlara 44 günlük Vətən Müharibəsi dövrü də daxil olmaqla, Azərbaycanın haqlı və ədalətli mövqeyini dəstəklədiyinə görə təşəkkürünü bildirib.**

**Nicat Novruzoğlu**
**Parlament müxbiri**

# Azərbaycan Respublikası Daxili İşlər naziri Vilayət Eyvazov cənablarına



**Çox hörmətli cənab Nazir!**

Sizi və sizin şəxsinizdə Azərbaycanın Daxili İşlər Nazirliyinin bütün kollektivini peşə bayramları - 2 İyul günü münasibəti ilə ürəkdən təbrik edir, əməkdaşların hər birinə can sağlığı və ailə səadəti arzu edirik.

**Cənab general-polkovnik!**

Biz yaxşı bilirik ki, prezidentimiz, Azərbaycan xalqının qarantı olan cənab İlham Əliyevin ölkənin bütün strukturları kimi, Daxili İşlər Nazirliyinə də daim xüsusi diqqət və qayğı göstərib. Məhz onun qayğısının nəticəsidir ki, bu gün Azərbaycan polisinin maddi-texniki bazası, həmçinin əməkdaşların həyat səviyyəsi əvvəlki onilliklərdən xeyli fərqlənir. Bu da hər birimizin güvənc yeri olan polisin daha yaxşı xidmət keçməsinə stimul verir. Məlumdur ki, Azərbaycan polisi torpaqlarımızın müdafiəsi uğrunda gedən döyüşlərdə xüsusi rəşadət göstərmiş, həmişə ön cəbhədə olmuşdur. Onların qəhrəmanlıqları unudulmazdır. Bu gün də Azərbaycan polisi əsl qəhrəmanlıq nümayiş etdirir.

**Cənab Nazir!**

Ölkəmizdə hər kəs Azərbaycan polisinin torpaqlarımızın işğaldan azad edilməsində, qazandığımız böyük Zəfərdə xidmətlərini çox gözəl bilir. Şəhid polislərimizin, qazi polislərimizin, müharibə veteranı olan polislərimizin xidmətləri bizim üçün unudulmazdır. Onların hər birinin qarşısında baş əyir və ehtiramımızı bildiririk.

Prezidentimiz İlham Əliyev cənablarının bəşəri bəla olan koronavirusla bağlı etdiyi çıxışlarda, müraciətlərdə, verdiyi tapşırıqlarda Azərbaycan polisinin əməyi xüsusi qeyd edilir. Bu gün karantin rejimində yaşayan ölkəmizin milli təhlükəsilik məsələsi olan pandemiyadan qorunmaqda polisimiz ön cəbhədədir. Hər kəs özünü qoruduğu bir anda polis həm də bizi qoruyur. Onların gecə-gündüz etdiyi reydlər, gücləndirilmiş nəzarətlər öz bəhrəsini verir. Biz bunun üçün Sizə və bütün polislərimizə minnətdarıq. Allah xalqımızı və onun bütün təmsilçilərini qorusun!

**Cənab general-polkovnik!**

Bir daha Sizi və bu gün peşə bayramı olan DİN-nin bütün əməkdaşlarını ürəkdən təbrik edirik.

**Hörmətlə:**
**Millət vəkili Aqil Abbas və**
**"Ədalət" qəzetinin kollektivi**

# "ŞUŞA BƏYƏNNAMƏSİ" TARİXİ BƏYƏNNAMƏDİR

**15 iyun Azərbaycan Respublikasının Qurtuluş bayramı günü Türkiyə Respublikasının prezidenti Rəcəb Tayyib Ərdoğan Bakıya gəldi. Sözsüz ki, bu gözlənti var idi. Xalqımız qardaş xalqın prezidentini səbirsizlklə gözləyirdi. Qiymətli qonağımızı həm Bakı gözləyirdi, həm də başı bəlalar çəkmiş Şuşa gözləyirdi. O, günü Qarabağın baş kəndi olan Şuşanın təməl müəllifi Pənahəli xanın ruhu şad görünürdü, xarıbülbül dil açıb danışırdı. Xurşudbanu Natəvanın, Molla Vəli Vidadinin, Molla Pənah Vaqifin, Qasım Bəy Zakirin gözəlləmələri, Qarabağ atlarının nalından qopan cingiltisi Cıdır düzündə yallı gedirdi. Bu tədbirə gələnlər, gəlməyənlər, İstər Təbrizdən olsun, istər Dərbənddən olsun, istər Uyğurustandan olsun, istər Səlcuqustandan olsun hamı kövrəlmişdi, hamının gözlərindən doğmalarına həsrət qalan Şuşanın həsrətdolu göz yaşları axırdı. Şuşa bu gün bütün Türk dünyasının qürur mənbəyidir. Hər vaxt yazdığım kimi- bu acını bizə iki əsrdən yuxarı yaşadanların qarşısında görən günahımız nə idi-bəlkə türk olmağımız idi?**

Qədim tarixə malik olan Azərbaycan türk torpaqlarında özlərinə dövlət quranlar, nə üçün bizim dövlətçiliyimizi, güclü olmağımızı bəyənmirdilər, bizim güclü dövlətə çevrilməyimizi nədən istəmirdilər. Ərazilərimiz müxtəlif zamanlarda farsizmin, rasizmin, leninizmin, stalinizmin əlləriylə bölünsədə, kiçildsədə boyumuzu kiçildə bilmədilər. Qamətimizi düz saxlamağı bacardıq. Günəş qədər müqəddəs olan torpaq sevgimizi, Vətən sevgimizi bütün dünyaya çatdırmağı bacardıq, nəsildən nəsilə ötürə bildik. İkili oyun aparan güclərin qabağından qaçmadıq, dik durduq, bərabər olduq.

***2020-ci il 27-sentyabr Azərbaycan Ordusu Ali Baş Komandan İlham Əiyevin komandalığı altında əks hücuma keçərək torpaqlarımızı erməni işğalından azad etməyə başladı. İllərlə, əsrlərlə sızlayan xalqımız özünün işğal tarixinə son qoyurdu. Ədaləti, imanı olanlar haqqın yanında idilər. Biz heç kəsdən qorxmurduq, haqq bizdə idi.***

### *Müharibənin gedişində*

müxtəlif söhbətlər gəzirdi. Açıq-aşkar biz görürdük bəzi dövlətlər tərəf tuturdular. 30 il ərzində Ermənistana bir söz deyən yox idi. Ermənistan özünün orta məktəb dərsliklərində, institutlarında Azərbaycan-Türkiyə ilə bağlı səy-səy materiallar, yalan, revanşist, miflərdən nələr yazıblar. Ermənilər yalan anlayışlarla, yalan rəqəmlərlə dünya gündəmini zəbt etmişdi. Gənclərini kiçik yaşdan türkə nifrət hissiylə böyüdürdülər. Biz bunu anlamalıyıq necə Minsk qrupu 30 il ərzində Bakıda, Yerevanda yeyib içiblər kef çəkiblər, heç bir iş görməyiblər. Onlar tutduğu işə məsuliyyət daşımamış kimi Cənubi Qafqaza turist kimi gəlib gedirdilər. Fransa ümumiyyətlə lap "ağ" eləmişdi, terrorçu dövlət sayılan Ermənistanın yanındaydı. tez-tez bəyanatlar verən Fransa prezidenti İmamuel Makronun yersiz bəyanatları bizdən ötrü sıfıra bərabər idi. O bəyanatların heç bir siyasi məntiqi yoxdur. Hər zaman özünün təxribatlarının qurbanı olan Ermənistanın iqtisadiyyatı yox, müstəqil siyasəti yox, qonşularla münasibəti yox, dövlətçilik tarixi yox görən bəs necə yaşayacaq bu Rusiyanın forpostu. 44 günlük müharibə ərəfəsində istər hərbi sahədə, istər canlı qüvvə barəsində Ermənistana yardımlar edən Fransa iki gündən bir Rusiya prezidenti Vladimir Putinlə danışaraq Qarabağdan ötrü status tələb edirdi. Yaxşı, ermənidən ötrü elə canın yanırsa ay Fransa ermənilər çox yaşayan əraziyə milli muxtariyyət ver ürəyin sakitləşsin. Biz Azərbaycan torpağında ikinci erməni dövlətinin yaranmasına heç vaxt imkan verməyəcəyik.

### *Qarabağ müharibəsi*

Azərbaycanın tarixi qələbəsiylə başa çatdı. Bu gün müharibə diplomatiya, informasiya sahəsində davam edir. Biz bunu belə də görürük. Ermənistanın heyranlarından birisi də Amerika Birləşmiş Ştatlarıdır. Bu gün ABŞ 1994-cü ildə Azərbaycana tətbiq etdiyi 907-ci maddəylə sanki alver edir. Bu cəzanı bu böyük hökumət bizə nə üçün vermişdi bu günə dək biz başa düşmürük. Bir milyondan yuxarı qaçqını olan, "Xocalı" soyqırımına məruz qalan xalqımızı, görən ABŞ nəyi nəzərdə tutub belə cəzalandırırdı.

Diplomatiya o vaxt güclü olur ki onun birinci iqtisadiyyatı sonra da ordusu olsun. Azərbaycanın bu gün güclü ordusu var, hələ qardaş Türkiyənin gücünü də əlavə etsək ümumiyyətlə Azərbaycan bu gün regionda çox güclü bir dövlətdir. Əlbət ki, Cənubi Qafqazda Türkiyənin rolu əvəzsizdir, Böyük Britaniyanın, Pakistanın, İzrailin döst ölkə kimi bizim yanımızda olması qürurvericidir. Yaxın günlərdə NATO zirvəsində Britaniya, ABŞ, Türkiyə üçbucağı öz sözünü dedi. 44 günlük müharibə ərəfəsində Türkiyənin Rusiyanı neytrallaşdırması bizə çox lazım idi, hərçənd biz bilirdik Rusiya gizlində Ermənistana qədərincə lazımı kömək edirdi. Bütün sahələrdə Ermənistanın yanında idi. Bizim bəxtimiz onda gətirib ki, Rusiya ilə birbaşa sərhəddimiz yoxdur.

***Rus qoşunun "sülhməramlı qoşun"-adı altında Qarabağda olması belə götürəndə heç kəsi qane etmir. Lakin bunun bir nüansı var: "Rus sülhməramlı"larının ərazilərimizdən çıxması hər iki tərəfdən asılıdır. Bizim Ermənistanla atacağımız birgə addımlar var. Bu ciddi və incə məqamlar baş verərsə zamanı gələndə sülhməramlı qoşunu çıxara bilərik. Bütün bunlara rəğmən böyük Türkiyə dövləti önə keçdi. Bölgədə barış, iqtisadi dirçəliş, Zəngəzur dəhlizinin açılışı böyük inqilabdır. Burada komunikasiyaların açılışı və daha başqa meyarlar özünün inkişaf yoluna ulaşacaqdır. Milli Məclisdə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayylib Ərdoğanın səfərinə həsr olunan xüsusi iclas keçirildi. Hörmətli qonaq olan Türkiyə Respublikasının Prezidenti parlamentdə hər kəsin ürəyini riqqətə gətirən, rahatlıq və toxtaqlıq verən tarixi bir nitq söylədi:***

"Sizi Türkiyədəki 84 milyonun adına salamlayıram" deyən ali qonaq daha sonra əlavə etdi: Bəxtiyaram çünki Qarabağ zəfərini qazanan Azərbaycandayam. Bəxyiyaram, çünki Azərbaycanın Milli Məclisində cizinlə bərabərəm. Bəxtiyaram çünki müstəqilliyin 30 ilinə yaxınlaşan Azərbaycandayam. Bu zəfərdən bütün dünya qazanclı çıxacaq" deyə bir daha vurğuladı. "Necə Çanaqqalada Azərbaycan igidləri bizim yanımızda olub zəfər qazanıblarsa Nuru Paşa Azərbaycanın yanına gəlibsə, biz də gələcəkdə bir və bərabər olacağıq. Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimiz, azadlğı isə azadlığımızdır- deyə Ərdoğan çıxışında bildirdi.

Türkiyə Respublidasının Prezidenti daha sonra dedi: "Qarabağ eyni zamanda dünyanı öz siyasi və iqtisadi maraqlarının arenası olaraq görənlərin hesablarının pozulduğu yerdir. Üstəlik bütün bu proseslər Azərbaycan ilə Ermənistan üçün də yeni bir dövrün başlanğıcıdır. Məsələn Zəngəzur dəhlizində fəaliyyətə başlayacaq dəmir yolu ilə ermənilər də rahatlıqla Moskvaya və bütün dünyaya çıxa biləcəklər". Daha sonra əlavə etdi: "Gəlin altı ölkə bir platforma formalaşdıraq: -Rusiya, Türkiyə, Azərbaycan, İran, Ermənistan, Gürcüstan. Bu platforma ilə birlikdə artıq bölgədə bir sabitlik meydana gəlsin, bölgədə düşmənçiliklər aradan qalxsın. Burada demək olar ki, Gürcüstanın bəzi özünəməxsus sualları var idi. Son Türkiyə səfərində Cənab Baş Nazirlə də bu məsələni müzakirə etdim. Dedim bu Gürcüstanın da lehinə olacaq, bu addımı ataq. Bax biz Ermənistan ilə aramızdakı narahatlıqları bilirik. Amma biz bütün bunlara baxmayaraq azərbaycanlı qardaşlarımızın narahatlıqlarının aradan qaldırılmasını istəyirik. Eyni qaydada sizin də Rusiya ilə problemlərinizin həllinə bu platforma töhfə verəcək."-deyə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan əlavə etdi.

***Riyakarlığın son həddini Ermənistan bu gün yaşayır. Beynəlxalq hüququn normalarını hər addımda pozan Ermənistanın hüquqdan danışmağa artıq haqqı yoxdur.***

Şuşada "Şuşa bəyənnaməsi" qəbil edildi. Bu bəyənnamədə qeyd edilirdi ki, Azərbaycan bu bölgədə güc sahibidir. Umumilikdə Şuşa bəyənnaməsi qardaş Türkiyə ilə Azərbaycan birliyidir. Etnik köklərimiz, mədəniyyətimiz bir, coğrafi məkanımız bir olması göstərir ki, bu iki dövlət bir millətdir.

### *"Şuşa bəyənnaməsi"*

regionda bütün ölkələr üçün sərfəlidir. Bunu müttəfiqlik bəyannaməsi də adlandırmaq olar.Yükdaşımaları, Ermənistanın iqtisadiyyatının krizdən çıxmasında böyük köməkliyi olacaqdır. Diplomatik meydanda siyasi oyunlar gedir. Oyunçular məlumdur. Türkiyə Rusiyanı Cənubi Qafqazdan sıxışdırıb çıxarmağa çalışır Rusiya isə Cənubi Qafqazı əlindən buraxmaq istəmir. İran hər vaxt olduğu kimi Ermənistana köməyini əsirgəmir. Ermənistan bu gün çox rəzil, ağır bir durumdadır. Bu terrorçu dövlətə bu vəziyyəti yaşadan Ali Baş Komandan İlham Əliyevin rəhbərlik etdiyi müzəffər Azərbaycan ordusudur. Müharibədən 7 ay keçməsinə baxmayaraq hələ də özünə gələ bilmir nehrə kimi çalxalanır. Yaxın gələcəkdə Ermənistanı bir dövlət kimi təsəvvür edə bilmirəm. Ermənistanda türkəfobiya güclüdür. Əhalisinin 90 faizinin təfəkkürü zəhərlənib. Bu da onların Türkiyə və Azərbaycan qarşısında çöküşü deməkdir. Gedən proseslər bunu tam aydınlığı ilə göstərir. Bu yaxınlarda keşiş Qaragenin qanunsuz yolla Laçın dəhlizindən keçib Xankəndinə gəlməsi və orada olan erməni əsgərləryilə görüşüb revanşist fikirlər səsləndirməsi, intiqam almaq kimi düşüncələrini paylaşması bu millətin hələ də orta əsrlər səviyyəsində olduğunu göstərir. Biz belə terrorçu qəbiləylə necə qonşu ola bilərik, bax bu çətin olacaq.

Azərbaycaan köçkün və qaçqınlarının Qarabağa bölgənin yaşayış məntəqələrinə qayıdışı hələ təmin olmayıb. Xalqımız öz prezidenti İlham Əliyevə inanır və döğma ata-baba ocağlarına gedəcəkləri günü səbirsizliklə gözləyirlər. Putin rusiyası isə Laçın koridorunu əlində saxlamaqla Xankəndində yeni binalar inşa edir, erməniləri inandırıb müxtəlif regionlardan daşımaqda, gətirməkdə davam edir. Hələlik gəmi necə adlanırdısa elə də üzür...

***Türkiyə ən sürətlə inkişaf edən dövlətlərdəndir. Qlobal səviyyədə güc sahibidir. Dünyada turizm sahəsində birinci üçlükdə olan dövlətdir. İnvestisiya mühiti burada çox güclüdür. Demək olar ki, hazırda Bakı-Ankara regional inkişaf lahiyələrinin tezliklə reallaşacağının anonsudur. İran iqtisadi sanksiyalar altında hələ çox boğulacaq. Bu gün Türkiyə də ABŞ-da yaxın Şərqdə, Qara dənizdə və Qafqazda Rusiyanın gücünü məhdudlaşdırmağa çalışırlar. Hər ikisi həm Vaşinqton, həm ankara Rusiya və Çinin, Özbəkistanın, Qazaxstan və Qırğızıstan ölkələrini öz təsir dairələrinə almaq istəyirlər.***

Dünyada vəziyyər gərginləkməkdə davam edir. NATO-nun son samitində bir daha vurğulandı. Quruma daxil olan ölkələrin yığıncağında yekun qərara əsasən Rusiya Avro-Atlantik məkanı üçün təhlükədir. Çindən yan keçməyən NATO zirvə toplantısı iştirakçıları "...dünya nizamına qarşı "sistem təhlükəsi" adlandırılıb. Vaxtıyla Vladimir Putini "qatil" adlandıran Co Bayden Cenevrə görüşündə Rusiya prezidentini dilinə dətirərək Putini "...ağıllı və sərt, layiqli rəqib" adlandırıb. Rusiya münasibətlərində ikili mövqe tutmayan bir siyasətçinin belə addım atması bir qədər qəribə görünür. Dünyada dəyişməyən reallıqlar mövcuddur. Bəzən başa düşmək olmur nələr baş verir.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın NATO zirvə-toplantısı ərəfəsində "...mən Nato zirvə toplantısından gəlirəm " deməklə Bakıya gəlməsi baş verəcək hadisələrin alt qatından, görünən tərəfindən xəbər verirdi.

İki dost və qardaş ölkələr arasında imzalanmış bütün beynəlxalq sənədlərə bununla əlaqədar 13 oktyabr 1921-ci il tarixli Qars müqaviləsinə sadiq olduqlarını bir daha təsdiq edərək dilə gətirdilər.

Tərəflər "Türkiyə Cumhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün və Azərbaycan xalqının ümumimilli lideri Heydər Əliyevin müdrükcəsinə söylədikləri "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" və "Bir millət iki dövlət" ifadələrinin xalqlarımızın milli-mənəvi sərvətləri kimi dəyərləndirildiyini xüsusi vurğulayaraq - "Şuşa bəyənnaməsi"ni qəbul etdilər. Gözümüzün önündə şahidlik etdiyimiz və yaşadığımız tarix. Bu tarixin şahidləri kimi biz də tarixin zaman kəsiyində bir parçasıyıq. Minilliklər yaşadan yurd yerlərimiz yenidən tariximizə qovuşur, doğmalaşır. 15 iyul 2021-ci il möhtəşəm tarixi bir gün- Milli Qurtuluş günümüzə ayrı ovqat qataraq tarixə çevrilir. Şuşa Bəyənnaməsi - müttəfiqlik bəyənnaməsi kimi əbədiyyətə qovuşur.

**Türkiyə Respublikasının prezidenti Rəcəb Tayyib Ərdoğanın Şuşa səfəri təkcə siyasi məsələ deyildi, o həm də şərəf məsələsi idi. Bu həm də Rusiyaya, Fransaya, ermənistanın yanında olan hər kəsə mesaj idi. Türkiyə hər zaman Azərbaycanla bərabər olub bundan sonra da bərabər olacaq. Tanrı türkə yar olsun!**



***Maşallah Məftun,***
***siyasi şərhçi***

# Turizm Cənnəti Antalya

## Antik dövrün zəngin şəhərlərindən biri - Möhtəşəm Aspendos məbədi



**Azərbaycanın öndə gələn bir sıra media qurumlarının əməkdaşları Türkiyənin Mədəniyyət və Turizm Nazirliyinin dəvəti və nazirlik nəzdində fəaliyyət göstərən Türkiyə Turizm Tanıtım və İnkişaf Agentliyinin təşkilatçılığı ilə Antalya şəhərində səfərdə olublar.**



Azərbaycan KİV nümayəndələrinin Antalyaya səfərinin təşkil olunmasında əsas məqsəd bir daha bu diyarın turizm potensialı, həmçinin hazırkı dönəmdə həyata keçirilən təhlükəsizlik tədbirləri barədə əyani şəkildə məlumat vermək idi.

Səyahətimiz zamanı istər Türk Hava Yollarında, istərsə də Antalya daxilində, otellərdə, tətil mərkəzlərində alınan profilaktik tədbirləri gördükdən sonra rahatlıqla deyə bilərik ki, Türkiyə ən güvənli turizm məkanlarındandır. Burada dənizin mavisi, təbiətin yaşıllığı insanı özünə heyran edir. Antalyanın əsas simvolu portağaldır.

Küçələrdə, yol kənarlarında teztez portağal, turunc, limon ağacları gözə dəyir. Şəhər özünəməxsus arxitekturası, tarixi abidələri ilə də məşhurdur. Türkiyənin ən zəngin muzeylərindən biri məhz Antalyadadır.Burada Osmanlı imperiyasına qədər olan dövrün tapıntıları, romalılara aid heykəllərlə işlənmiş sarkofaqlar nümayiş etdirilir. Antalya Türkiyədə ən çox antik şəhər olan vilayətdir.

Özünəməxsus arxitekturası və tarixi abidələri ilə məşhur olan şəhər dağlarla əhatələnib.

Qeyd edək ki, Antalyada 2, 3, 4 və 5 ulduzlu olmaqla 120-dək hotel fəaliyyət göstərir. Antalya daha çox yaxta gəzintiləri, Sidə, Likiya və digər qədim şəhərlərə, Düdən, Kurşunlu şəlalələrinə təşkil edilən ekskursiyaları ilə məşhurdur. Koronavirus pandemiyası müddətində Türkiyə turizm sahəsində gördüyü tədbirlərlə nümunə olub.

***

**Türkiyənin Azərbaycandakı səfirliyi tərəfindən edilən dəvətlə Antalyadakı səfərimiz davam edir.**

Səfər çərçivəsində baş çəkdiyimiz növbəti məkan Aspendos antik şəhəri oldu. Antik məkanlarla zəngin Antalyada görülməli yerlərdən biri də Aspendosdur. Antalyanın təqribən 50 kilometr şərqində yerləşən Aspendos antik şəhəri, ziyarətə gələn turistlərin diqqətini çəkən ən böyük tarixi yerlərdən biridir.

Türkiyə torpaqlarında tarix boyu bir çox mədəniyyətlər yaşayıb, yaradıb və burada aparılan arxeoloji qazıntılar zamanı tarixin müxtəlif dövrlərinə aid şəhərlər, mədəniyyətlər yenidən kəşf edilir.

Serik ilçəsinin 8 kilometr şərqində, Köprüçayının dağlıq bölgəsindən düzlüyə çatdığı yerdə e.ə. X əsrdə Akalar tərəfindən qurulmuş Aspendos antik dövrün çox zəngin şəhərlərindən biri olub. Şəhər biri böyük, biri kiçik iki təpə üzərinə qurulmuşdur. Coğrafiyaçı Strabon və Pamponrus Mela, şəhərin Agruslularca qurulduğunu yazırlar. Bölgəyə e.ə. 1200-cü ildən sonra Yunan köçləri olmuşdur. Halbuki, Aspendos adının mənbəyi Rumlardan əvvəlki yerli Anadolu dilidir. Əhəmiyyətli bir ticarət yolu üzərində olduğu və Köprüçay çayı ilə limana bağlandığı üçün Aspendos, hər dövrdə ələ keçirilmək istənən şəhərlər arasında yer almışdır.

Bələdçimiz Hasan Çalışkan söyləyir ki, Aspendosun ən əhəmiyyətli abidəsi teatrıdır.

Buradakı Aspendos teatrı kiçik Asiyada Romalılar tərəfindən inşa edilən ən böyük teatrlardan biridir. II əsrdə inşa edilmiş, Roma imperatorluğunun ən böyük memarlıq əsərlərindən biri olan Aspendos teatrı Serik ilçəsinin Belkis kəndi ərazisində yerləşir.



Memarı Aspendoslu Theodorusun oğlu Zenondur. Antonius Piu zamanında inşasına başlanmış Marcus Aurelius zamanında tamamlanmışdır (138-164).

Aspendos antik teatrı ortasında yerə metal pul atıldığında üst sıralarda belə səsinin eşidildiyi dünyanın akustik olaraq ən yaxşı teatrıdır.

Bu binanın restavrasiya olunmasına Mustafa Kamal Atatürkün göstərişindən sonra başlanılıb. 1930-cu ildə Antalyaya səfəri çərçivəsində Aspendos antik şəhərini də ziyarət edən Mustafa Kamal Atatürk belə bir göstəriş verir: "Bu teatrı restavrasiya edin. Ancaq qapısına kilid vurmayın. Burada tədbirlər keçirin".



**Beləliklə, dahi Atatürkün həmin göstərişindən sonra qədim teatra yeni həyat verilib. Restavrasiyadan sonra yeni həyatına qədəm qoyan bu ecazkar bina hər il Aspendos Opera və Balet Festivalına ev sahibliyi edir.**

(ardı var)

**Sübhan Mahmudov**
**Türkiyə, Antalya**

---

**Mustafa Çəmənli**



# ERMƏNİ POLKOVNİKİNƏ AÇIQ MƏKTUB

**Sən ey şərəf və ləyaqət hissindən bixəbər, polkovnik Koruyun Qumaşıyan! Gör sən, hansı əməlinlə fəxr edirsən? "Mənim birləşmələrim və mən Laçın və Kəlbəcər yaxınlığında 17 maşın mina yerləşdirmişik, minalara görə ərazidə heç nə edə bilməyəcəksiniz. Əsirlərimizi bizə qaytarın, mina xəritəsini verəcəm". Gör nə qədər ədalətsiz, qəddar birisən ki, bəşəri cinayətini televiziyada həyasızcasına səsləndirirsən. Hələ bir utanmadan özün kimi diversant əsgərləri qaytararıqsa, "Mina xəritəsini verəcəm" söyləyirsən. Törətdiyi cinayətin fərqində olmayan sənin kimi insanlıq qatili ancaq belə düşünə bilər. Əlbəttə, sən belə düşünməlisən. Zaman-zaman təlim aldığınız keşişiniz də Allahını unudub, ancaq kin-küdurət püsgürübsə, sən ürəyiaçıq, böyükruhlu türkə qənim kəsiləcəkdin. Hələ çar Rusiyası dövründə sənin əcdadların sizə qahmar çıxan, sizə yox yerdən vilayət yaradan dövlətə xəyanət etməmişdilərmi? Babaların İrəvan şəhərində Üçkilsədə (Eçmiədzində) maşın tərtib edib, 9 milyon qəlp əsginas pul kəsmişdilər. Dövlət xəbərdar olub həmin pulu və maşını müsadirə etmişdi. Pulkəsənləri və kəsdirənləri də tutub cəzalandırmışdı. (M.M.Nəvvab. "1905-1906-cı illərdə erməni-müsəlman davası". 1993, səh. 12)**

İnanmırsansa, get arxivinizi eşələ, gör nələr görəcəksən. Axı siz yalan danışmağı sevirsiniz. Müsəlman dövlətlərinin içində azsaylı millət kimi yaşadığınızı unudub dövlətçilikdən, dənizdən dənizə böyük Ermənistan yaratmaqdan danışırsınız. Nə ilə, hansı güclə? Sizi XIX əsrdə köçürdüb Azərbaycan torpaqlarında məskunlaşdırıblar. Bunu mən uydurmuram ha. "Ermənilərin Azərbaycana köçürülməsi" kitabını mən yazmamışam, bu işdə canfəşanlıq edən S.N.Qlinka yazıb. "Rusiyanın Ərzurumdakı baş konsulu Mayevskinin qeydləri"ni, onun "Qafqazda erməni-tatar qırğını məsələsinin mərhələlərindən biri kimi" (mart, 1906-cı il) qeydlərini də mən yox, 1 iyul 1915-ci ildə V.Mayevski yazıb.

Ancaq nə olsun, bütün dünyanın görkəmli adamlarının xalqınızın ünvanına söylədiklərini sətir-sətir sizə oxutsaq belə, hiyləgərliklə altından çıxacaqsınız. Çünki sizdə ədalət, vicdan anlayışı yox dərəcəsindədir.

1918-ci ildə yenicə yaranmış Azərbaycan Xalq Cümhuriyyəti qədim İrəvan şəhərini bu şərtlərlə sizə vermişdi ki, bizə qarşı ərazi iddialarından əl çəkəsiniz. Söz verdiniz, amma əməl etmədiniz. Gəmidə oturub gəmiçi ilə dava saldınız. Nəticədə məğlub oldunuz. Hətta Gürcüstanla da müharibə etdiniz, təbii, yenə məğlub oldunuz. Tutduğunuz əməllərdən təsirlənən gürcü şairi İlya Çavçavadze haqqınızda yazdı ki, "...Dəlilləri təhrif etmək, özgəninkini mənimsəmək, abidələri pozmaq və qazmaq, özgə torpaqlarını özünə çıxmaq və s. buna bənzər "yaxşılıqlar" ermənilərin çox qədim hünəridir və buna onlar lap qədimdən alışmışlar... Ermənilər dost cildində düşməndir. Onun nəvazişindən, təbəssümündən qorxduğum qədər açıq düşməndən qorxmuram".

Bəli, düşmənçilik etmək olar, amma namərdlik etmək olmaz. Sən bunu anlamazsan, çünki miskinsən. Miskin, zavallı olmasaydın, zaman-zaman sizə ərazi güzəşt edən, süfrəsinin başında oturdan bir millətin torpağında mina basdırmağınla fəxr etməzdin. Sən mina basdırmaqla, basdırılan ərazinin xəritəsini verməməklə heç nə əldə edə bilməzsən. 44 günə sənin kim mina basdıran polkovnikin ordusunu darmadağın edən Ali Baş Komandanımız, müzəffər ordumuz torpaqlarımızı təmizləməyə, yeni kəndlər, şəhərlər salmağa da qadirdir. Yeri gəlmişkən, sizin ordunuzu diz çökdürən əsgər və zabitlərin çoxu evini dağıdıb qaçqın həyatı yaşamağa məcbur etdiyiniz qarabağlıların uşaqlarıdır.

Mən sizi qınamıram. Bir millətin ki, 70 yaşlı katalikosu, patriarxı da ətəyində Qarabağa mina daşıyıb, xalqına barış əvəzinə hikkə təlqin edirsə, sən kimdən nümunə götürəcəksən ki...

Biz təlimimizi Qurani-Kərimdən almışıq, müqəddəs duyğularla böyümüşük. Özgə torpağında mina basdıran polkovnik, sən bilirsənmi ki, "Qeyrət və şərəf bahalı mülkdür. Pulla alınmaz və ucuz insanlarda olmaz" (Hz.Əli Əleyhissalam).

Ey Qumaşıyan, bizlər humanist ideyalar, bəşəri duyğular carçısı dahi Nizami Gəncəvinin "Xəmsə"si ilə tərbiyələnmişik. Ey gerizəkalı, bilirsənmi XII əsrdə yaşamış bu dahi nə deyirdi? Sənin kimi ağılsızlara üzünü tutub deyirdi ki:

*Dünyaya fateh olmaz zülmkarlıq, rəzalət,*
*Yer üzünün fatehi ədalətdi, ədalət!*

XIV əsrdə yaşamış Nəsimi sənin kimiləri nəzərdə tutub yazırdı: "Ey özündən bixəbər qafil, oyan!" Ey ədalətdən uzaq, polkovnik, bizə belə tərbiyə veriblər. Səninsə tərbiyə aldığın, heykəlini ucaldıb, qarşısında səcdə etdiyin faşist Qaragen Nijdedir. XXI əsrdə yaşayasan, bu qədər düşüncəsiz, keçmişindən bixəbər olasan. Axı çar Rusiyası sizi vətəndaşı olduğunuz İrana, Osmanlı Türkiyəsinə xəyanət etdiyiniz üçün Qafqaza köçürməsəydi, bizim ata-baba torpaqlarımızda dövlət qura bilməzdiniz. Vaxtilə sizi Azərbaycan torpaqlarına köçürdənlər belə sizin düşüncənizin fərqində olmuşlar. Sizin himayədarlarınızdan biri, rus səfiri, yazıçısı A.S.Qriboyedov çara yazdığı məktubunda xəbərdarlıq edirdi: "Əlahəzrət, ermənilərin mərkəzi rus torpaqlarında məskunlaşmasına icazə verməyin! Onlar elə tayfadırlar ki, həmin yerlərdə bir neçə on il yaşadıqdan sonra dünyaya hay-küy salaraq, bura bizim qədim dədə-baba torpağımızdır deyəcəklər".

Polkovnik Qumaşıyan, bu tarixi məktub ki, bizə məxsus deyildir. Sizin bədbəxtliyiniz hələ də qəflətdə yaşamağınızdadır. Balalarınızı yalançı tarixinizlə bədbəxt etmisiniz. Əslində siz öz sərsəm, heç vaxt baş tutmayacaq ideyalarınızla xalqınızı dərin bir uçuruma yuvarlatmısınız. Mən millətinizi aşağılamaq istəmirəm, ancaq Fransa yazıçısı Aleksandr Dümanın "Qafqaz səfəri" kitabında xalqınız haqqında yazdıqlarını olduğu kimi bura köçürməkdən də özünü saxlaya bilmədim. Düma-Ata yazır: "Ermənilər həmişə başqa dinə qulluq edən hökmdarların hakimiyyəti altında olmuşlar. Nəticədə öz fikir, niyyət və duyğularını gizli saxlayan, hiyləgər və kələkbaz adamlara çevrilmişlər. Ermənilər xain, hiyləgər, həm də qorxaq millətdir".

Biz Düma-Atanın 162 il qabaq yazdığı bu fikri inkar edə bilmərik. Ona görə ki, siz Ermənistandan azərbaycanlıları öz ata-baba yurdlarından ayaqyalın, başıaçıq halda qovmusunuz, Xocalıda amansız, bağışlanmaz vəhşiliklər törətmisiniz, əsirlər aparıb qul kimi işlətmisiniz, havadarlarınızın köməyi ilə 7 rayonumuzu işğal edib bir milyon əhalini yurdundan didərgin salmısınız, indi də müqəddəs torpağımızda minaları toxum kimi səpmisiniz, yeraltı, yerüstü sərvətimizi talan etmisiniz, salamat bir ev qoymamısınız. 44 günlük müharibədə məğlub olmusunuz, barışa, qəddinizi düzəldə bilmirsiniz! İndi də utanıb qızarmadan Laçın və Kəlbəcərdə 17 maşın mina basdırmağınızla fəxr edirsiniz.

**Cənab özündənrazı Qumaşıyan! Əgər bizlərə demokratiya dərsi keçənlərdə zərrəcə ədalət olsaydı, sizi Beynəlxalq Haqa məhkəməsinə verər, basdırdığınız minaların xəritəsini sizdən alıb bütün millətlərin gözləri qabağında başınıza çırpıb, ömürlük azadlıqdan məhrum edərdi.**

**8 iyun 2021-ci il**

---

## Putinin yeni planı: Əsəd devriləcək



***Rusiya Prezidenti Vladimir Putin suriyalı həmkarı Bəşər Əsədi devirmək üçün bir plan hazırlayıb.***

***Bu iddia ilə Əsəd rejiminin keçmiş diplomatı Saqr əl-Mülhim çıxış edib. O qeyd edib ki, Rusiya ilə bəzi problemləri olan və Moskvanın tələblərini qarşılamaqda çətinlik çəkən Əsəd Putinlə anlaşmasa, üzünü İrana tutacaq.***

***Mülhim Suriyada olan ölkələr arasında anlaşma əldə edildiyini və İrana bağlı milis qruplarının təmizlənəcəyini, eyni zamanda Suriyada yeni hökumətin qurulacağının yaxın vaxtda elan ediləcəyini iddia edib. Çıxılmaz durumda qalan Əsəd və ailəsi isə İran, Venesuela və Kubadan sığınacaq istəyəcək:***

***"İlk olaraq, böhranın həlli üçün rejimin hərbi şurasının yanında siyasi şura qurulacaq və müxalifətdəki bəzi suriyalı səlahiyyətliləri əhatə edəcək müvəqqəti hökumət yaradılacaq".***

## Blinken: Pandemiya qlobal bərabərsizliyi artırdı

***Koronavirus pandemiyası qlobal bərabərsizliyi daha da artırdı və böhranın nəticələrinin aradan qaldırılması üçün beynəlxalq əməkdaşlığa çağırıldı.***

***Bunu ABŞ Dövlət katibi Entoni Blinken deyib.***

***"COVİD-19 böhranı dünyada iqtisadi bərabərsizliyi dərinləşdirdi, "İyirmilik" buna yardım edə bilər. Biz daha çox ölkəyə vaksin çatdırmalıyıq", - Blinken bildirib.***

***MEHRİBAN***

---

## Sabahdan toylar başlayır, bəs şadlıq saraylarında qiymətlər necədir?

**Ötən illərlə müqayisədə şadlıq saraylarında menyuların qiyməti böyük miqdarda artırılıb. Belə ki, restoran sahibləri gəlirlərindən məhrum olmamaq üçün toy mərasimlərdə qonaq sayının az olmasını qiymətləri artırmaqla kompensasiya etməyə çalışırlar.**

Bu barədə Trend-ə açıqlama verən iqtisadçı-ekspert, millət vəkili Vüqar Bayramov süni şəkildə qiymət artımının müşahidə edildiyini deyib.

Onun sözlərinə görə, bu, əsasən tələbin yüksək olmasından irəli gəlir. Pandemiyadan öncə də bəzi ölkələrdə toya gələn qonaqların sayının tənzimlənməsi barədə qaydalar var idi. Məsələn, Tacikistanda belə qaydalar tətbiq olunurdu: "Amma toyda menyunun qiymətinin tənzimlənməsi ilə bağlı demək olar ki digər ölkələrdə də xüsusi qaydalar tətbiq olunmur. İnkişaf etmiş ölkələrdə və digər MDB ölkələrində bu, tələb-təklif əsasında formalaşır. Təbii ki, toylara tələb yüksəkdir. Gələn ayın 1-dən etibarən kifayət qədər böyük sifarişlərin olacağı gözlənilir.

Tələb yüksək olduğuna görə, çox təəssüf ki, bir sıra şadlıq saraylarının sahibləri süni şəkildə qiymət artımına gedirlər və xüsusən pandemiya dövründə işləmədikləri üçün menyuları daha yüksək qiymətə təklif edirlər".

Millət vəkili həmçinin bildirib ki, şadlıq saraylarının sahibləri əhalinin aztəminatlı təbəqəsini də nəzərə almalı və məsələyə həm də sosial korporativ aspektdən yanaşmalıdırlar. Şadlıq saraylarının sahibləri nəzərə almalıdırlar ki, pandemiya təkcə onlara yox, əksər sektorlara və praktiki olaraq bütün ölkələrə təsir göstərib.

**"Burda inzibati tənzimlənmə metodundan istifadə edilməsi real görünməsə də, amma sosial korporativ məsuliyyət məsələsi vacibdir. Sahibkarların məsələyə sosial korporativ məsuliyyət aspektindən yanaşmasına ehtiyac var. Qiymətlərin süni şəkildə artırılması deyil, vətəndaşlar üçün əlçatan olması olduqca vacibdir. Daha məqsədəuyğun olardı ki, şadlıq saraylarının sahibləri pandemiyanın əksər sahələrə təsirlərini nəzərə alaraq, uyğun menyu təklif etsinlər ki, uzun müddət toy etmək arzusunda olan, lakin bunu reallaşdıra bilməyən aztəminatlı ailələr də bu imkanlardan istifadə etsinlər" - deyə deputat bildirib.**

---

## Metrodakı yeni qatarlarda yoluxmanın qarşısını alan kondisionerlər olacaq

**"Bakı metropoliteni" QSC-nin sifarişi ilə Bakıya Rusiyanın "Metrovaqonmaş" müəssisəsinin istehsalı olan dördüncü nəsil 81-765 və B81-/766.B modelli 20 vaqon yola salınıb.**

Bunu QSC-nin mətbuat xidmətinin rəhbəri Bəxtiyar Məmmədov deyib.

Onun sözlərinə görə, vaqonların ilk partiyası iyunun 29-da, ikinci partiyası iyunun 30-da göndərilib:

"Hər partiyada iki lokomotiv yer alır. Təkmilləşdirilmiş istilik və səs izolyasiyalı vaqonlarda sərnişinlər üçün çoxfunksiyalı zonalar, irihəcmli yüklər, uşaq və əlillər üçün yerlər var. Vaqonlar virusa yoluxmanın qarşısını alan funksiyasının olduğu kondisioner sistemləri ilə təchiz olunub".



B.Məmmədov əlavə edib ki, kondisioner sistemi QSC-nin texniki tələblərinə uyğun və yerli iqlim şərtləri nəzər alınaraq hazırlanıb:

"Yeni vaqonlar "Nərimanov" elektrik deposunda sazlama işlərindən sonra xəttə buraxılacaq".

---

# AZƏRBAYCANDA "HƏR ŞEY DAXİL" NƏ ZAMAN OLACAQ?!

**Dünyanın turizm ölkələrində xidmət çox yüksəkdir, xüsusilə də qardaş Türkiyədə. Ona görə də yay-qış dünya Türkiyəyə axışır. Burda bir paketdi , yəni otelin xərci də, gündə üç, bəzilərində dörd, bəzilərində isə hətta günün 24 saatı yemək-içmək həmin paketə daxildir.**

Özü də açıq bufetdir, yəni İsveç masası. Və o qədər müxtəlif çeşidli yeməklər, içəcəklər, mer-meyvə olur ki, seçim etməyə bəzən çətinlik çəkirsən.

Bunu Azərbaycanda tətbiq etmək olmazmı? Bizdə təkcə səhər yeməyi daxildir paketə.

Günorta və axşam təklif olunan menyü isə belədir:

***- quzu kababı;***
***- antrikot;***
***- can əti;***
***- dana basdırması kababı;***
***- lülə kabab;***
***- tikə kabab;***
***- döymə kabab;***
***- toyuq kababı;***
***- hinduşka kababı;***
***- balıq kababı;***
***- qaban kababı;***
***- donuz kababı;***



***- bildirçin kababı;***
***- kartof kababı;***
***- quyruq kababı;***
***- içalat kababı;***
***- çənə kababı;***
***- sac içi (toyuq, quzu, dana);***
***- toyuq çığırtması,***
***- qayqanaq;***
***- tənək dolması;***
***- badımcan dolması və sair və ilaxır, qiymətlər də od tutub yanır.***

İndi gəlin turizmi inkişaf etdirin. Hansı urus Türkiyənin ucuz otellərini qoyub Nabranın çirkin çimərliklərinə və bahalı otellərinə gələr?

**Mehriban CƏFƏROVA**

# Qırxıncı otağın sirri

## Yaxud filologiya elmləri doktoru, professor Məhəmmədəli Mustafayevin ölümündən bir neçə gün əvvəl sosial şəbəkədə yazdığı status

**... Son aylar bir-birindən ağır və kədərli xəbərlər alıram. Və bu ağır və kədərli xəbərlər acı olduğu qədər də adamı yandırıb yaxır. Bir neçə gün bundan əvvəl dostum və qardaşım, Aşıqlar Birliyinin sədri Məhərrəm Qasımlı çox həyəcanlı anda mənə zəng edib dedi ki, bəs xəbərin var, Məhəmmədəli insult keçirib və 5 nömrəli xəstəxananın reanimatsiya şöbəsinə yerləşdirilib. Bu şok xəbərdən çox çətin anlar yaşadım. Amma bir anlıq özümü ələ alıb qardaşı və mənim dostum Azər müəllimə telefon açdım. Dedim ki, xəbəri indi eşitmişəm. Bəs Məhəmmədəli müəllimin durumu necədi. O mənim həyəcanımı hiss edib təsəlli verərək bildirdi ki, vəziyyəti pis deyil. Həkimlər deyir ki, bir neçə gün keçəndən sonra nəsə bir söz demək olacaq.**

... Heç içimdə dinclik tapmırdım. İkinci dəfə yenidən Azər müəllimə telefon açdım. Bildirdim ki, xəstəxanaya gəlmək istəyirəm, çox narahatam. Axı, sən yaxşı bilirsən ki, 30 il o kişi ilə dostluq eləmişəm, çörək kəsmişəm, xeyirimiz və şərimiz bir yerdə olub. Yenə Azər müəllim təsəlliverici sözlər dedi. Dedi ki, özü ilə bu gün görüşə bilməmişəm, amma həkimi deyir ki, pis deyil. Bir gün sonra isə yenidən mənə Məhərrəm müəllim telefon açdı. Gördüm ki, ağlaya-ağlaya deyir ki, bəs, xəbərin var, Məhəmmədəli dünyasını dəyişib?! Sanki yuxu görürdüm. Və sanki bunların heç birinə inanmaq istəmirdim. Çünki kimə ölüm yavıtsan da Məhəmmədəliyə heç vaxt ölüm yavırtmaq olmurdu. Və həmişə də deyirdim ki, sən bu qədər deyib gülənsən, zarafatçılsan, hamımızı çiynində yola salacaqsan o dünyaya. O da deyirdi ki, Allahın işinə qarışmaq olmaz. Kimin nə vaxt Allaha qovuşacağını ulu yaradanından savayı heç kəs bilmir.

Necə hönkürdümsə, səsimə xanımım və nəvəm gəldi. Məni kiridə bilmirdilər. Elə ağlaya-ağlaya Azər müəllimə telefon açdım. Sözümü deyə bilmədim və hönkürüb ağladım. O da mənə qoşulub hönkürdü. Bir anlıq özünü ələ aldı və mənə təsəlli verdi ki, çox ağlama. Məhəmmədəlini itirdik, heç olmasa səni qoruyaq. Mən indən sonra Məhəmmədəlinin iyisini səndən alacam.

... Təzyiqim kəlləçarxa qalxmışdı. Elə göz yaşı içində, uzun müddət bir yerdə işlədiyimiz Asif Talıboğluna və Daşdəmir Əjdəroğluna telefon açdım. Onlara acı xəbəri çatdırdım və yenidən hönkürüb ağladıq. Bir gün sonra Nazim Ağamirov mənə zəng elədi. Bilirdi ki, hamıdan çox mən Məhəmmədəli ilə yaxın idim və mənim Məhəmmədəli ilə olan zarafatlarımı da Nazim Ağamirov çox yaxşı bilirdi. Ağayana kişinin oğlu Nazim müəllim sanki mənə başsağlığı vermiş kimi bir təsəlli də verdi. Dedi ki, dünya belədir. Bir gün gələn bir gün gedər. Məhəmmədəlinin dünyasını dəyişməyi məni də çox kədərləndirib. Ötən günlər bir-bir gəlib durur gözümün önündə. Gözümün önündə duran həm də Məhəmmədəli Mustafanın şən, şux zarafatlarıdı. Bu sözləri Nazim müəllim deyir və əlavə edir ki, səhhətim imkan vermir ki, yas yerinə gedim. Mənim adımdan doğmalarına, əzizlərinə, qardaşına sən Allah dil-ağız elə.

Asif Talıboğlunu da götürüb qardaşı Azər müəllimgilə gedirik. Evlərini tapa bilmirik. Üçüncü Yavər Əliyev küçəsidir deyir Azər müəllim. Amma yenə küçəni tapmaqda çətinlik çəkirik. Telefon açıram, Azər müəllim gəlib bizi tapır və onun maşınının arxasıca evlərinə gedirik. Bu da onların qapısı, bu da onların evləri. Qapının ağzında Məhəmmədəlinin bir neçə ay bundan əvvəl aldığı ağ maşın durur. Əvvəl Azər müəllimi qucaqlayıb hönkürürəm, sonra Asif Talıboğlu Azər müəllimi qucaqlayıb ağlayır. Məhəmmədəlinin maşınına sarı gəlirəm və bir anlıq elə bilirəm ki, maşının içindən çıxıb özünəməxsus bir şirinliklə deyəcək. Ə, hardasan, dərdin alem, gəl çıx da! Amma bu sözləri eşitmirəm. Əlimi maşının üstünə qoyub üzümü kapota sürtürəm. Sanki onun nəfəsini hiss edirəm. Pilləkənlərlə yuxarı qalxırıq. Hələ də nə mənim, nə də Asif müəllimin göz yaşları quruyub. Məclisin yuxarı başında çox böyük ziyalı, Məhəmmədəlinin qaynı Vidadi müəllimi və onunla qarşı-qarşıya oturmuş bizim qardaşımız Məhərrəm Qasımlını görürəm. Yenidən qucaqlaşıb hönkürürük. Vidadi müəllimin bir təsəllisi bizi kiridir. Ay qardaşlar, dünya belədir, bir gün gələn bir gün getməlidir. Bilirəm, Məhəmmədəlini çox istəyirdiz. Amma bu da Allahın işidir, Allahın yazısıdı. Hamımız kiriyirik...

Yadıma 1990-cı ilin iyulun 26-sı düşür. On nəfər "Ədalət" qəzetinin ilk nömrəsini çapa hazırlamışıq və ilk nömrənin sevincini yaşayanlar içərisində Məhəmmədəli Mustafa da var idi. İndiyə kimi yadımdadı. Aqil Abbasın verdiyi banketdə Məhəmmədəli arağı başına çəkdi və dedi ki, bu gün mənim ömrümün qızıl səhifəsidi. Tək onun ömrünün qızıl səhifəsi deyildi, bu həm də Aqil Abbasın və bütövlükdə bizim hamımızın qızıl səhifəsi idi. Düz 20 il Məhəmmədəli Mustafa bu qəzetdə çiynini ən ağır yükün altına verdi. Birinci Qarabağ müharibəsində Aqil Abbas bizim hər birimizi bir rayona göndərirdi. Mən Qarabağa gedirdim, Lətif Süleymanlı Tovuza, Qazağa, Məhəmmədəli Mustafa isə Gədəbəyə. Zarafat deyil, 1991-ci ildə Şınıxdan keçib Gədəbəyə gedəsən, ordan da səngərdə yazı yazasan.



Hansı ki, Şınıxa getməyə və ordan keçməyə Gədəbəyin polis rəisinin iradəsi çatmamışdı. Qorxmuşdu və geri çəkilmişdi. Aqil Abbas birinci səhifədə yazandan sonra Məhəmmədəli yenidən Gədəbəyə getdi və həmin rəislə Şınıxı keçib səngərdə döyüş nöqtəsində oldu. Ordan da unikal bir yazı yazdı: "Sıyrılmış qılınc kimin əlindədir". O yazı çox böyük əks-səda verdi və biz də Məhəmmədəlini sanki bir qəhrəman kimi tanıdıq. Çünki həmin dövrdə Şınıxa getmək, ordan keçib səngərdə olmaq hər oğulun işi deyildi. Amma bunu Məhəmmədəli Mustafa bacardı. Aqil Abbas onu həddindən çox istəyirdi. Özdə çox səmimi zarafatları var idi və bu zarafatlardan Məhəmmədəli inciməzdi.

Əksinə, Aqil Abbasın zarafatlarını yağ-bal kimi qəbul edərdi. Deyərdi ki, rəisimizdi. Hər adamla zarafat eləmir, amma mənimlə zarafatlaşır.

İki ay bundan əvvəl Lətif Novruzov bir təşəbbüs irəli sürdü: Dedi ki, köhnə işçiləri yığ, bir ziyafət verəcəm. Mən də köhnə işçilərdən Asif Talıboğlunu və Məhəmmədəli Mustafanı tapdım. Babək Yusifoğluna telefon açsam da cavab vermədi. Və bir neçə gündən sonra bir yeməkxanada görüşdük. Yeriniz məlum, yaxşı yeyib-içdik və ötən günləri xatırladıq. Onu da xatırladıq ki, biz iyun ayının axırında rəhmətə gedən dostlarımızın məzarını ziyarət edəcəyik. İlk gedişimiz Tovuza olmalı idi. Məhəmmədəli mənə zəng etdi ki, Bərdəyə gedib qayıdım, gedərik Tovuza. Mən ona hər gün zəng edirdim, o da mənə telefon açırdı. Bir gün telefon açmayanda elə bilirdim nəsə itirmişəm.

Bir həftə bundan qabaq elə bil ürəyimə nəsə dammışdı. Xəstəxanadan qayıdırdım, ona zəng etdim. Dedim "Neftçilərdə" səni gözləyirəm, gəl! O da axı yaxınlıqda qardaşıgildə qalırdı. Heç 10 dəqiqə keçmədi, gəldi. Oturduğumuz və çay içdiyimiz çayxanaya getdik. Çox qəribə söhbətlər etdik. Elə bilirdim ürəyimə nəsə damıb. Hətta mənim təqaüdə çıxmağımdan söhbət açdıq. O da dedi ki, ə, heç rəhmətlik Mail müəllim mən yaşda idi. 63 yaşda təqaüdə çıxa bilmədi, rəhmətə getdi. Mənim də 63 yaşım sentyabrın 1-də tamam olacaq. Mənə dedi ki, narahat olma, hələ bundan sonra biz çox yaxşı günlər görəcəyik. Biz bir-birimizin nəvəsinin toyunda iştirak edəcəyik. Bir-birimizə gözaydınlığı verəcəyik. Çay içib ayağa qalxdı. Amma mənim ürəyim yenə döyünürdü. Elə bilirdim bu bizim son görüşümüzdü. Dedi gəl əyləş maşında, sonra düşərsən. Maşına əyləşdim, dedi tələsməsən gedib dəniz kənarında təmiz hava alardıq. Amma bir müdafiə var. Ora tələsirəm. Allah qoysa gələn dəfə bir yerdə əyləşib doyunca söhbət edərik.

Allah o günü bizə qismət eləmədi və mən 30 illik dostumu, yoldaşımı, qardaşımı itirdim. Və mənim heç kimlə onunla olmayan bir yaxınlığım, mehribanlığım, doğmalığım var idi. Qardaşımı itirəndə necə kədərlənmişdimsə, onu da itirəndə həmin hissləri keçirdim. Çünki onu mənim rəhmətlik anam, rəhmətlik qardaşım, o biri qardaşım Elxan, qardaşım uşaqları və balalarım da çox istəyirdi. Hətta mən statusa Məhəmmədəli ilə bağlı bir yazı qoymuşdum. O dəqiqə qızım telefon açıb ağladı. Dedi ki, Məhəmmədəli əminin əzizlərinə, doğmalarına bizim adımızdan başsağlığı ver.

Məhəmmədəli, Məhərrəm müəllim və mən elə bir həftə olmazdı ki, bir-birimizə telefon açmayaq. Məhəmmədəlinin yas məclisində gördüm ki, uzun illərin dostu olmuş Məhərrəm müəllim necə qəhərlidi, necə hünzlüdü. Zarafat deyil ey, hər gün zəngləşdiyi, hal-əhval tutduğu adamı itirib. Amma Məhəmmədəlinin heç kimə bənzəməyən, göy üzü kimi təmiz, bulaq suyu kimi saf xasiyyəti bizə böyük təsəllidir. O qədər sadə, o qədər səmimi və o qədər göründüyü kimi olan bir ziyalı idi. Bax, hansı mövqeyə çatmışdısa, alın təri ilə, yuxusuz gecələri ilə, öz zəhməti ilə qovuşmuşdu. Bizim qəzetdən getdiyi 10 il deyil, bu 10 ildə filologiya elmləri doktoru və professor adını qazandı. Çoxlu sayda elmi məqalələr yazdı. Hətta Təhsil Nazirliyi tərəfindən təsdiq olunmuş ali məktəblər üçün dərs vəsaiti hazırladı. Bu gün sabah çap olunmalı idi. Gününün çox hissəsini ya kitabxanada, ya işlədiyi Elmlər Akademiyasında, ya da Sumqayıt Dövlət Universitetində keçirirdi.

Məhəmmədəli Mustafa başqaları kimi kimdənsə köçürməmiş və kimdənsə kömək görməmişdi. Bütün namizədlik və doktorluq işini özü yazmışdı. Yəni, bu zirvəyə Allah-Təalanın gücü ilə özü çatmışdı.

Onun itkisi həm Azərbaycan elminə, həm də Azərbaycan jurnalistikasına çox ağır bir zərbə oldu. Çünki biz bu cür ziyalıları itirmək cəmiyyətin işığının, nurunun azalması deməkdir. Böyük Ramiz Rövşənin bir bənd şeiri yadıma düşür:

*Hər qış neçə dost azalır,*
*Adı daş üstdə yazılır...*
*Yoxsa bizsiz də yaz olur,*
*Gilanarlar çiçəkləyir?!*

**Yazını dostum və qardaşım, Məhəmmədəli Mustafayevin ölümündən biri neçə gün qabaq sosial şəbəkədə yazdığı statusla bitirmək istəyirəm: "Nağıllardakı qırxıncı otaq məni həmişə maraqlandırıb. Çox fikirləşəndən sonra o qapıya da açar saldım. Gördüm ki, qırxıncı otaq əslində yoxdur. O bizim puç olan xəyallarımız, həyatda reallaşdıra bilmədiyimiz arzularımız, sona qədər qoruya bilmədiyimiz əzizlərimizdir. Filosoflardan biri deyir ki, ömrü boyu nəyisə axtardım, sonra bildim ki, axtardıqlarım itirdiklərim imiş. Hesab edin ki, nağıllardakı qırxıncı otaq var, son ümidinizə nöqtə qoymayın"...**

**Faiq QİSMƏTOĞLU**

# Baranrudun sahili, müəmmalı Şəhriyar şəhəri:

# "Bilyər və Suvarlar"dan REPORTAJ

**Vətənin hansı tərəfinə , hansı köşəsinə, bucağına ayaq qoyursansa qoy, elə bil cənnətə ayaq qoyursan! Bəli, Vətən torpağının "yaxşısı", "pisi" yoxdu! Əgər vətənini sevirsənsə, yurduna vurgunsansa, göydən od ələnən, çəmənsiz- çiçəksiz düzləri , başı dumanlı, buz kimi sərin dağlar- yaylaqlar qədər sevəcəksən! Göz yaşı kimi dumduru Xaçın çayını sevdiyin qədər bulanıq selli Arazı da sevəcəksən! Vətənini sevirsənsə fərq qoymadan sevəcəksən!**

Bu gün yolumuz sevgilim yurdumun qədim oğuz eli olan Biləsuvar rayonunadır. Tarixi də insanları kimi mənəvi cəhətdən zəngin, yenilməz olan bu eli bizə bir də sevdirən Azərbaycanın Milli Qəhrəmanı, Azərbaycan əsgərinin qəhrəmanlıq rəmzi Mübariz İbrahimov oldu. Mübarizin şəhadət günü münasibəti ilə rayona səfər edəndə gördüklərimiz ağ vərəqə köçürüb, bir də sizə göstərməyə çalışdıq.

### *Qədim Oğuz yurdu: Şəhriyar şəhərinin qalıqları, kurqanlar, qalalar...*

Muğan düzündə yerləşən ən iri və çox qədim tarixə malik rayonlardan biridir Biləsuvar! Qədimliyini sübut edən 1 memarlıq, 12 arxeoloji tarixi və memarlıq abidəsi var. Bunlar keçmiş Biləsuvar yaşayış məntəqəsi ərazisində "Şəhriyar qalası" memarlıq abidəsindən, həmçinin Bədilli kəndi ərazisində tunc dövrünə aid 7 Kurqan təpəsi, Təzəkənd kəndi ərazisində tunc dövrünə aid 2 Kurqan (qoşatəpə), dəmir dövrünə aid "Torpağay təpə", Dərvişli kəndi ərazisində dəmir dövrünə aid "Seyid altı təpə" kurqanı, Yuxarı Ağalı kəndi ərazisində "Ceyran təpə" kurqanı, Əmənkənd kəndi ərazisində tunc dövrünə aid "Şəhriyar təpə" kurqanı, Şəhriyar kəndində orta əsrlərə aid Ağdam qalası, yenə həmin ərazidə orta əsrlərin əvvəllərinə aid "Çöl Ağdam şəhərciyi" və "İçəri Ağdam yaşayış ərazisində" arxeoloji abidələrindən ibarətdir. Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutu Biləsuvar rayonunda apardığı arxeoloji kəşfiyyat işləri zamanı orta əsrlərə aid bir neçə qədim abidə, eyni zamanda, qədim şəhərin qalıqlarını aşkarlayıb. Biləsuvar rayonunda arxeoloji qazıntı aparılan zaman "Çöl Ağdam qalası", "İçəri Ağdam qalası", orta əsrlər Şəhriyar şəhərinin qalıqları, rayonun İsmətli kəndində orta əsr yaşayış yeri və kurqanı, Səmədabad kəndində orta əsr yaşayış yeri və s. aşkarlanıb. İndiyədək Şəhriyar şəhəri haqqında məlumatlar olsa da, bununla bağlı arxeoloji qazıntılar aparılmayıb.

### *Piləsuvar? "Belə", "su", "var"? Yoxsa, Bilyər və Suvarlar?*

Biləsuvar adının yaranması tarixçilər arasında hazırda müzakirələrə səbəb olan bir mövzudur. Məsələn, İran tarixçisi Həmdullah Qəzvininin məlumatına görə Biləsuvar X əsrdə Büveyhi əmiri Piləsuvar saldırmışdır və şəhər də öz adını ondan almışdır. Tədqiqatçı Sabir Nəsiroğlu isə başqa bir variant ortaya qoyur. O, "Sehrli diyarın sirri" adlı qısaldılmış tarixi monoqrafiyasında və "Həməşəradan gələn səslər" kitabında tarixi mənbələrə istinad edərək yazır ki, Muğanda xəzərlər, massagetlər və s. tayfalarla yanaşı bilyər və suvarlar da yaşamışdır. O, belə bir nəticəyə gəlir ki, Biləsuvar iki tayfanın - bilyər və suvarların cəmlənib düşmən qarşısında qəhrəmancasına vuruşduğu yer mənasını verir. Daha sonra müəllif qeyd edir ki, "Atlı əsgərlərin və çaparların keçid yeri" toponimi Biləsuvarın toponiminə uyğun gəlir.

***Xalq etimologiyasına görə, isə ərazi öz adını "belə", "su", "var" sözlərinin birləşməsindən almışdır. Yerli əhali də bu versiyaya daha çox üstünlük verir.***

Yeri gəlmişkən, Biləsuvar rayonu 1930-cu ildə təşkil edilib. Amma hələ 1914-cü ildən başlayaraq Qafqaza köçürülmüş rusların şərəfinə rayonun adı dəyişdirldi. "Şanlı" sovet hökuməti tərəfindən rayon 1938-ci ildə Puşkin adlandırıldı. 1963-cü ildə ərazisi Cəlilabad rayonu ilə birləşdirildi. 1964-cü ildən isə yenidən müstəqil rayon oldu. SSRİ dövləti dağıldıqdan sonra 7 fevral 1991-ci ildən onun tarixi adı özünə qaytarıldı.

### *Bolqarçay yoxsa bol qarın çayı?*

Biləsuvarın Bəydili kəndində qonaq olmağımız Bolqarçayı yaxından seyr etməyimə də imkan verdi. Çayın yatağı geniş, dərin bir az da zəhmli görünürdü. O böyüklükdə çaylaqdan kiçik bir kəhriz qədər su gedirdi. Niyə belə az deyib düşünərkən, qonağı olduğum evin sahibi - Şəhid Əlizadə Ruslanın anası Nigar xanım bildirdi ki, evlərinin bir addımlığındakı Bolqarçay yağış sularından əmələ gəlir:" İlin soyuq aylarında yağan yağışlar çayda böyük daşqınlar əmələ gətirir. Yay aylarında çayın suyu tamamilə azalır, bəzi illərdə isə quruyur". Adı Azərbaycanda məskunlaşmış türkdilli bulqar tayfasının adı ilə bağlılığı güman edilsə də, yerli əhalinin fikrincə, bu elə "bol" "qar"ın əmələ gətirdiyi çaydır.








***Azərbaycanla İran arasında dövlət sərhədini təşkil edən, mənbəyini Talış silsiləsində, Qarıçadağın şimal yamacından götürən Bolqarçayın başqa bir adı da var: Balharı çayı. Məlumata görə, çay talışlar arasında Bolharu, VII əsrə aid mənbələrdə Baranrud, XIV əsrdə Bacrəvançay formasında qeydə alınıb. Uzunluğu 163 km olan və bir neçə adla tanına bu çaydan səmərəli istifadə etmək üçün üzərində Bolqarçay su anbarı tikilib. Çay Mahmudçala gölünə töküləndən sonra suvarmada istifadə olunur. Yeri gəlmişkən, Mahmudçala gölünün faunasını ölkəmizdə qızılqaz kimi tanınan flaminqolar zənginləşdirir. Amma rayon ərazisində ən çox rast gəlinən heyvan növləri canavar, tülkü, boz dovşan, çölsiçanı və çaqqal, quşlardan kəklik, qırqovul, göyərçin və sair su quşlarıdır.***

Rayonun suya olan tələbatını bir də mənbəyini Araz çayından götürən uzunluğu 101 km olan Əzizbəyov adına (sonradan isə Cənub-Muğan kanalı adlandırıldı) kanaldı. 45 min hektara yaxın müxtəlif növ əkin sahəsinin suvarılması ilə yanaşı, əhalinin texniki-məişət suyuna olan tələbatının ödənilməsində də mühüm rol oynayır.

### *Quru çöllüyü gülüstana çevirən biləsuvarlılar*

İyun ayında rayona səfər etmək həm də burada yaşayan əhalinin necə mətin və dözümlü olduğunu görmək deməkdi. Deməli, rayonun az bir hissəsində şabalıdı və açıq şabalıdı torpaqlar var, amma böyük bir hissəsi qeyri şorakət və az miqdarda şorakət torpaqlardır. Bitki örtüyündə çöl formasiyası geniş yer tutur. Quru çöl bitkiləri şahsöyüdü, yulğun kolları var. Əslində belə bir yerdə yaşıllıq salmaq, bol məhsul götürmək isə təbiətən igid insanlara məxsusdur. Əvvəlcə qeyd edim ki, Biləsuvarın əhalisi 105100 (yüz beş min)nəfərdi ki, onun 82000 (səsən iki min)nəfəri kəndlərdə, yerdə qalanı isə şəhərin özündə yaşayır. Xırmandalı, Bəydili, İsmətli kəndləri ən çox əhali yaşayan kəndlərdi. Camaatın əsas məşğuliyyət sahəsi əkinçilik, heyvandarlıq və quşçuluqdu. Buna baxmayaraq rayonda da kənd təsərrüfatı məhsullarını istehsal edən sənaye müəssisələri: "Biləsvar-Aqro" süd emalı zavodu, "Natural Qreland MMC"-nin konsevr zavodu yaradılıb. Bundan əlavə burda mebel fabriki və beton zavodda fəaliyyət göstərir.

***Gəzdiyimiz Bəydili, Xırmandalı, Əliabad, Zəhmətabad, Əsgərabad kəndləri şəhərə yaxın olmaqla, həm də yaşıllığa qərq olub, Hər evin darvazası ağzından su arxı keçir. Su olan yerdə də həyat var , deyirlər.***

Bax, o səbəbdən burda da gül-çiçək, müxtəlif meyvəağacları var. Şəhid Məhəmməd Quluzadəgilin bağ-bağçası kimi...Meyvə ağaclarının, gül kollarının qoxusu bir yandan, dibçəklərdəki "kiçik cənnət" dən yayılan rahiyə də bir yandan.. qızmar günəş altında adamın ürəyinə su kimi səpilir.

### *Elmin və əxlaqın nümunəsi: Adlı-sanlı biləsuvarlılar*

2013-cü ilin "Gənclər Paytaxtı" seçilmiş Biləsuvar rayonunda təhsil və təlimə önəm vermək əsas şərtdi. Bunu rayonun M.Piriyev adına Əliabad kənd tam orta məktəbinin direktoru Bəsti Rüstəmova ilə söhbətimizdə o söylədi.

Dedi ki, bədnam qonşularımız ermənilər olunca, biz müəllimlərin əsas vəzifəsi bilikli, savadlı gənc yetişdirməklə bərabər, həm də vətəni sevən, vətən darda qalarkən onun harayına çatan igid oğullar və qızlar yetişdirməkdi:" Biləsuvarlılar hər zaman, istər I Qarabağ müharibəsində, istərsə də Vətən müharibəsində ön cəbhədə və arxa cəbhədə çox fəallıq göstəriblər. I Qarabağ müharibəsində, 2016-cı ilin Aprel döyüşlərində, İyul savaşlarında ümumilikdə 134 nəfər, o cümlədən Vətən müharibəsində 67 nəfər biləsuvarlı şəhidlik zirvəsinə yüksəlib. İndi həm rayonumuzun, həm kəndimizin, həm məktəbimizin adını respublikaya yaxından tanıdan yetirmələrimizlə fəxr edirik. Hazırda məktəbimizin adını daşıyan , I Qarabağ müharibəsi şəhidi Malik Piriyev, Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimov, eləcə də Vətən müharibəsinin şəhidləri Elvin Şahmarlı, Səməd Kərimli, Rahət İsayev təhsilimizin verdiyi düzgün təlim-tərbiyənin bariz nümunələridir".

***Bəli, elə bu səbəbdən də rayonda 26 tam orta məktəb, 10 ümumi orta məktəb, 2 məktəbdənkənar təhsil müəssisəsi, 2 uşaq incəsənət məktəbi, 10 məktəbəqədər təhsil müəssisəsi var.***



***Bu gün həmin məktəblərin məzunları qazandığı bilikləri Biləsuvarın hər bir sahəsində ortaya qoyur. Məsələn 3 xəstəxana, 14 həkim ambulatoriyası, 6 həkim məntəqəsində savadlı tibb işçiləri öz həmyerlilərinə layiqli xidmət göstərirlər.***

Biləsuvar Olimpiya İdman Kompleksi 2008-ci il oktyabrın 7-də gənclərin istifadəsinə verilib. 6,5 hektar ərazidə yerləşən Kompleksə 910 tamaşaçı tutan əsas idman salonu, 25 metrlik üzgüçülük hovuzu, müasir idman avadanlığı quraşdırılmış kiçik və böyük trenajor zalları, məşq zalları, şahmat otağı, stolüstü tennis salonu və yardımçı otaqlar daxildir. Yüz nəfərlik yeməkxanası olan kompleksin ərazisində 50 yerlik mehmanxana, habelə ikimərtəbəli iki kottec də tikilib.Müasir standartlara cavab verən kompleksdə mütəmadi olaraq boks, cüdo, karate, sərbəst güləş, taekvndo, futbol üzrə respublika və beynəlxalq səviyyəli yarışlar keçirilir.

Əminəm, respublikamızda tanınan biləsuvarlılarla sizdə tanışsınız: Fəlsəfə elmləri doktoru, professor Ağayar Şükürov , Aqrar elmlər üzrə fəlsəfə doktoru Ələddin Eyvazov, kimya elmləri doktoru, professor, Bakı Dövlət Universitetinin Üzvi kimya kafedrasının müdiri, Kimya fakültəsinin dekan müavini Namiq Şıxəliyev, Filologiya elmləri doktoru, professor, dekan Fikrət Cahangirov , Azərbaycan Respublikasının Əməkdar Mühəndisi Rizvan Abasov, Nyu-York Elmlər , Akademiyasının həqiqi üzvü, professor Azad Abışov, tarix elmləri doktoru, Bakı Dövlət Universitetinin Avropa və Amerika ölkələrinin müasir tarixi kafedrasının professoru;Milli Şuranın sədri, 2013-cü il prezident seçkilərində prezidentliyə namizəd Cəmil Həsənli, fizika-riyaziyyat elmləri doktoru, professor, Bakı Dövlət Universitetinin "Riyazi kibernetika" kafedrasının müdiri Kamil Mənsimov, Yazıçı, ssenarist Əhmədağa Muğanlı , Yazıçı Əlibala Hacızadə, Pərviz Cəbrayılı, aktyor, xalq artisti Ramiz Novruzov aktyorlar İlqar Dadaş,Mahir Mirişli, kinematoqrafçı, rejissor, prodüser. Beynəlxalq kino festivalların iştirakçısı İntiqam Hacılı ,



rəssam Gündüz Ağayev, Sosialist Əməyi Qəhrəmanı, Prezident təqaüdçüsüləri Qızqayıt Həsənova və Ərəstun Məmmədov ,Yunsur Hacıyev və başqaları. Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimov və General - leytenant, Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Baş Qərargahı tabeçiliyində Xüsusi Təyinatlı Qüvvələrin komandiri Hikmət Mirzəyevi xüsusi qeyd etmək boynumuzun borcudur.

Biləsuvardan aldığım təəssüratlara burda nöqtə qoymaq istəyirdim ki rayonda olan dostlarım mənə zəng edib, bir xəbər çatdırdılar. Dedilər ki, Vətən müharibəsinin qəhrəmanı, Əsgərabad kəndindən olan şəhid Kənan Rüstəmlinin xatirəsini əbədiləşdirmək üçün kənddə onun adına abidə qoyulub! Üstəgəl bir də "Şəhid Kənan bulağı" tikilib. 26 İyun Silahlı Qüvvələr günü ilə əlaqədar olaraq həmin abidənin və bulağın təntənəli açılış mərasimi keçirilib. Bəli, xalqımız hər zaman qəhrəmanlarını qəlblərdə, yaddaşlarda yaşadıb. Dəyərli biləsuvarlılar isə dəyərlilərinə dəyər verməyi özlərinə borc bilirlər!

**Xalqımıza əminamanlıq, şəhidlərimizə rəhmət, qazilərimizə can sağlığı arzulayıram!**

**Əntiqə Rəşid**

**Mətbuata gəlişim, ilk yazım - şəhidlərimizdən, qazilərimizdən yazdığım tanıtım məqalələrindən başlayıb. Düz 20 ildi bu tip yazılarla tanınmışam. Bu gün sizə bir I Qarabağ müharibəsində əlil olmuş, vətənsevər bir igiddən danışmaq istəyirəm və bunu ilk dəfədir ki, danışıram.**

Əslində onu sırf təsadüf nəticəsində tanıdım. 2004-cü ildə... Bir rəfiqəm xahiş etdi ki, çox təvözəkar bir çavuş var, bakılıdır, müharibədə əlil olub onun haqqında mətbuatda bir cümlə də getməyib...bəlkə sən yazasan?Cavabım : Qazilərimiz başımın tacıdır, sevə-sevə...

Səhəri günü redaksiyasının qapısı ağzında çox yaraşıqlı və səliqə ilə geyinmiş, bir az da utancaq bir oğlan dayanmışdı.Üz-gözündən nur yağırdı, söhbət edərkən gözünü yerdən qaldırmaz, adamın gözünün içinə baxmazdı. Sakit və səbrli görünürdü. Bu görüşdən sonra həmin çavuş haqqında işlədiyim qəzetdə qısa bir məlumat yazdım. Bu tanışlıqdan sonra dəfələrlə onun həm cəsurluğu, həm vətən sevgisi ilə bağlı yazı yazmaq istədiyimi bildirsəm də o, razı olmadı. Amma dövlətimiz tərəfindən evlə təmin olunanda çox sevincliydi . Bu sevinci və dövlətinə təşəkkürünü elə həmin gün 2015-ci ilin oktyabr ayın 17-də mətbuatda işıqlandırdım. Vəssalam...Sonra nə qədər israr etsəm də , razı olmadı. Bu yazını isə ona sürpriz edirəm.



*Manqa komandiri, çavuş Novruzov*



İsmayıl Pirəkəşkül də 1 aylıq təlimdən sonra təyyarə vasitəsilə Naxçıvana ordanda ən qaynar olan nöqtə Sədərəkə gətirildi. 777 saylı xüsusi təyinatlı əlahiddə hərbi hissəyə- komandir Elçin Məmmədovun tabeliyinə verildi. Onu xüsusi qeyd edim ki, podpolkovnik Elçin Məmmədov tabor komandiri, baş leytenant Rövşən Əkbərov isə tabor komandirinin müavini idi. Taborun tərkibi ilkin olaraq Əfqanıstan müharibəsi zamanı Sovet Ordusunda xidmət etmiş 32 azərbaycanlı zabitdən ibarət idi. Buna görə tabor "Əfqan" ləqəbi ilə tanınırdı. İsmayılın 1 il 6 ay hərbi xidmətdə olması, rus dilini mükəmməl bilməsi, çavuş rütbəsində eyni zamanda idmançı- baksçu olmas onu komandanlıq tərəfindən həqiq hərbçi kimi dəyərləndirdi. İki döyüş əməliyyatında fərqləndiyinə , yaralılnı vaxtında döyüş meydanından çıxartdığına, hücum edən erməniləri dəqiq kordinatlarla aşkar edib məhv etdiyinə görə çavuş Novruzov döyüşlərə piyadaların manqa komandiri kimi təyin edilir...

# Vətən olan Qazilərimiz: Manqa komandiri, çavuş, bakılı İsmayıl...

### *Bakılı İsmayıl, Yasamal uşağı...*

***1972-ci ildə Bakı şəhəri, Yasamal rayonunda ziyalı ailədə doğulub. Əsgərliyə gedənə qədər Bakı şəhəri 94 saylı texniki peşə məktəbində "Mebel yığıcı operator" fakültəsində təhsil alıb. Həmin illərdə Milli Azadlıq Hərəkatında yaxından iştirak edib. Heç bir mitinqdən qalmayıb. 20 yanvar hadisələrinin canlı şahidi olub. Həmin gecə yaralıların təhlükəsiz bir tərəfə yığılmasında, daşınmasında məhlə uşaqları Samir, Cəmil, Telman, İlqar və s. birgə fəaliyyət göstərib... Anası Yaxşıxanım ana deyir ki, gecə evə gəlmədiyinə görə elə bilirdim ki, oğlum da öldürülüb:" Səhərə qədər yatmadıq . Elə hey pəncərədən baxıb, ağlayırdım. Dan üzü ağaranda üst-başı qan içərisində evə gəldi. Onu belə görəndə stressdən huşumu itirdim, ürəyim getdi..." Sonra...***

1992-ci ilin qışı idi. Belarusiyanın Borisov şəhərində böyük bir hərbi hissədə 1 il 6 aydır ki, 20 yaşlı İsmayıl Tahir oğlu Novruzov həqiqi hərbi xidmətdəydi.







Bir gün növbəti dəfə "karaul"dan geri dönürdü. Azərbaycandan olan əsgərlər : Bakı, 4-cü mikrarayondan olan Dima Şkulkov, Razindən olan Oleq Taçilin, Balaxanıdan olan Əli onu həyəcanla qarşıladılar.

Bildirdilər ki, Belorusiya Dövlət Televiziyası bir necə dəfə Qarabağda - Xocalı şəhərində azərbaycanlıların ermənilər tərəfindən vəhşicəsinə qətlə yetirilməsini nümayiş etdirib... Böyük bir hərbi hissədə, vətəndən çox uzaqlarda cəmi 4 nəfər kədərliydi, yaslı idi...Çünki əlləri heç yerə çatmırdı...

Məlum kadrlar sabahı gün də televiziyada dəfələrlə göstərildi. Hər dəfə göstəriləndə İ.Novruzovun Azərbaycana qaçmaq fikri bir az da güclənirdi. Rus dilini hələ uşaq vaxtından mükəmməl bildiyi üçün ərizə yazıb hərbi hissə komandanlığına müraciət etdi. Xidmətinin qalan hissəsini Azərbaycanda keçirmək istədiyini bildirdi. Komandanlıq İsmayılın məktubunu Azərbaycana göndərdi. Azərbaycan həmin vaxt Qarabağ üçün döyüşmək istəyən könüllülərə müraciət edərək onlara cağırış etmişdi. Bu üzdən İsmayılın ərizəsi qəbul olundu. 3 aydan sonra - iyunun -2-də artıq o Bakıdaydı.

### *Sədərək, "Cin təndiri"*

***Yadınıza gələr, Naxçıvanla Türkiyənin arasında Sədərək-Dilucu körpüsünün tikintisi yekunlaşmaq üzrə idi. Sonradan "Ümid" körpüsü adlandırılan bu strateji, həyati əhəmiyyətli layihə Naxçıvanın blokadasının bir tərəfli yarılması demək idi. Məhz buna görə də ermənilər bu əraziləri işğal etməklə onun reallaşmasına mane olmaq istəyirdilər. 1992-ci il mayın 18-də erməni silahlı birləşmələri Laçını işğal edəndən sonra növbəti hədəf Naxçıvan idi. Həmin gün Sədərək istiqamətindən ağır silahlar və döyüş texnikası ilə hücuma keçən düşmən Azərbaycan əsgərlərinin və yerli əhalinin ciddi müqaviməti ilə rastlaşdı. Həmin gün qeyri bərabər döyüşdə, Sədərəkdə 19-20 yaşlı gənclər qəhrəmanlıq tarixi yazdılar. Sədərəyi ala bilməyən düşmən demək olar ki, hər gün hücuma keçir , hər gün təxribat törədirdi.***

İsmayılgilin batalyonu , xüsusən yenicə formalaşan ordumuzun döyüşə atılan, ən təhlükəli postda növbət çəkən əsgərləri, isti yay günlərində vaxtlı-vaxtında yeməklə, su ilə təmin olunmasalarda (post atəş xəttində olduğuna görə), digər yandan ilanların və əqrəblərin qaynaşması, erməni diversantların basqını onların döyüş ruhunu azacıqda olsa düşürmürdü.

Ermənilərin növbəti dəfə ən böyük hücumu oktyabrın 28 oldu. "Cin təndiri" ərazisində şiddətli döyüş başlandı.Əsgər Əyyub (İmişlidən), Süleyman( Şəki) ağır yaralanmasını , ürəyindən snayper gülləsi alan gənc əsgərin (gəncəli) şəhid olması manqa komandirinin gözünün qabağında baş verir. Həmin vaxt bədənini deşik -deşik edən qəlpələrin ağrısından yerdə qıvrılan, silahdaşlarına yardım etmək amacıyla ayağa qalxmaq istəyir, amma düşdüyü yerdən qalxa bilmir. əlini yerə dirək verib qalxmağa çalışanda isə torpağın üstündəki sinəsindən, kürəyindən, ayaqlarından, qarnından süzülüb torpağa qarışan qanı görəndə qalxa bilməyəcəyini anladı. Sonra isə huşunu itirdi.

### *Ölümün astanasından geri dönmək: cərrahi əməliyyat, II qrup əlil...*

Bir necə gün sonra Naxçıvan Mərkəzi Xəstəxanasında həkim- cərrah Elman Tağıyevin sayəsində gözünü açdı. Məlum olur ki, yaraları ölümcül olsa da sağlamlığı, peşəkar idmançı olması ona ölümü yaxınlaşmağa imkan verməyib.

Amma bədəni qəlpələrlə doludu. Qəlpələrin 23-ü həyat ücün təhlükəli olan hissələrdə, o cümlədən ürəyin ətrafında yerləşir, təngənəfəlik, əzalarda, sümükdə ağrılar ömrünün axırına qədər onunladır. 3 kq-dan artıq yük götürməsi eyni zamanda dərin əsəb və stress keçirməsi əzələlərdə hərəkətlənməyə, eyni zamanda qəlpənin yer dəyişməsinə səbəb olur ki, bu da cox acı ağrılar verir. 2020-cu ildə ürək ətrafındakı qəlpə ürəyə 5mm, indi isə 3 milli yaxınlaşıb. 1993-cü ildə Tibbi-Sosial Ekspert Komissiyasın qərarına əsasən Novruz II qrup Qarabağ müharibəsi əlili kimi dəyərləndirildi

1992-ci ildən üzü bəri İsmayılın müalicəsi və ya müayinəsi, eləcə də yenidən əməliyyat olunması həyata kecirilmədi. Hazırda bütün qəlpələri özündə gəzdirir. 2017-ci ildə qazi Firidun Məmmədovun şəxsi təşəbbüsü ilə

***1 saylı Kliniki Tibbi Mərkəzə (Semaşko) aparıldı və müayinədən kecirildi. Məlum oldu ki, İsmayılın yenidən əməliyyat olunması üçün dilindən kağız almaq lazımdır ( əməliyyat əks effekt verərsə, şikayətci olmamaq üçün).***

Ən maraqlısı və gülməli olan odur ki, bilinməyən səbəbdən 3 il əvvəl İsmayılın əlillik dərəcəsi II -dən III-ə endirildi. Axı bunun səhhətində heç bir yenilənmə olmayıb!! Axı bədəndə sağalmağa doğru gedən heç bir yenilik yoxdu!?

Hətta yaş artdıqca ağrılar daha dözülməz həddə çatır... Bir sözlə komandirin əlilliyinin III qrupa endirilməsi səbəbi hələ də məlum deyil.

### *Vətənə xidmət hər kəsin borcudur! Qazilər isə vətənin bir parçası, elə vətənin özüdür!*

***Bütün bunlara baxmyaraq Çavuş İsmayıl Novruzov Aprel döyüşlərində də, İyul - Tovuz döyüşlərində də , Vətən müharibəsində də yazılı şəkildə əlaqədar orqanlardan orduya buraxılmasını xahiş etdi. Təbii ki, o dərəcədə yaralı bir döyüşçünü cəbhəyə buraxmaq olmazdı və nə yaxşı ki buraxmadılar.***

Müharibə əlillərinin, qazilərin səhhəti, sağlam həyatı vətənə qurban gedib. Dəfələrlə edilən cərrahi əməliyyatlardan , narkozlardan, ailəsi üçün bir iş görmək istəyibdə edə bilməməkdən onların həyatı , yaşamı necə ağır olduğunu deməyə ehtiyac yoxdu, ağrı-acılara necə dözdükləri də bir qəhrəmanlıqdı vallah!

Atası Tahir əmi, anası Yaxşıxanım ana, bacıları: Dilbər, Mehriban, qardaşları: İlham, Musa ona görə, hər zaman İsmayılla fəxr ediblər!

Bir sözlə, indiyənə qədər heç vaxt ordumuzun qalib əsgər və zabirlərini bu günki qədər ürəklə, sevinclə təbrik etməmişik !İndi isə vəziyyət bambaşqadır! Müharibə əlillərinin, qazilərin hərəsi vətənin bir parçasıdır. Onlarsız vətən vətən olmazdı. İndi düşünürəm ki, nə yaxşı ki, bu vətən parçalarının birinə Vətənim kimi də xidmət edirəm ... Nə yaxşı ki, amalımız da, yollarımız da birdi! Nə yaxşı!!!

**Cənab Çavuş, qəlpəli qəzan mübarək! Ordu günün, Kişilər bayramın mübarək!!**

**Əntiqə Rəşid**

# Sevda İbrahimova: "Atam SSRİ-nin dağılması ilə heç cür barışa bilmirdi..."

***İstedadın da qanla, genlə nəsildən nəslə keçdiyi artıq qəbul olunub. Bizdə isə bunu sübut etməyə lüzum yoxdur, ona görə ki, yüzlərlə sübut var. Hamısı da göz qabağında. Yəni indi müxtəlif sənət sahələrində müvəffəqiyyətlə çalışan istedadlı sənət adamlarının əksəriyyəti bir vaxtlar bütün dünyaya səs salan korifey sənətkarların övladlarıdır. Bu üzdən istedadın atadan oğula keçdiyini söyləmək olar. Amma gəlin, görək məşhurların övladları bununla razılaşırlarmı? Valideynlərini necə xatırlayırlar? Axı indi az qala sitayiş etdiyimiz dühaları övladlarından yaxşı kim tanıyır?***

***Bu gün "Ədalət" qəzetinin qonağı Azərbaycan ədəbiyyatının ünlü simalarından biri, xalq yazıçısı Mirzə İbrahimovun qızı tanınmış bəstəkar xalq artisti Sevda İbrahimovadır. Yazı-pozuya nəsə maraq göstərmirdim, laqeyd idim...***

- Atam 1911-ci ildə İranda anadan olub. Kiçik yaşlarında ailəsi Bakıya köçüb. Əmək fəaliyyətinə də kiçik yaşlarında mədənlərdə başlayıb, işləyə-işləyə təhsil alıb. Sənaye Texnikumunu bitirəndən sonra Leninqrad Dövlət Universitetinin ədəbiyyat fakültəsində təhsil alıb...

**- Sevda xanım, Mirzə İbrahimovun ədəbiyyata gəlişi və bu yöndəki fəaliyyəti ictimaiyyətə məlumdur. Bizi isə onun yalnız kiçik dairəyə, yaxın ətrafına bəlli olan tərəfləri ilə tanış olmaq istərdik. Atanız ailədə necəydi?**

- Atamın çox mülayim xasiyyəti vardı. Tanımadığı adamlara da çox isti münasibət göstərirdi.

**- Kimlərlə dostluq edirdi?**

- Ən yaxın dostları Səməd Vurğun, Süleyman Rüstəm, Rəsul Rza və Mehdi Hüseyn olub. Tez-tez Rəsul müəllimgilə gedib-gəlirdilər. Süleyman Rüstəm də qonşumuz idi deyə, hər gün bir yerdə olurdular.

**- Mirzə İbrahimovun ən çox aludə olduğu məşğuliyyət hansıydı?**

- Atamın hobbisi kitab oxumaq idi. Həmişə mütaliə edirdi.

**- Bəs, istirahətlə arası necəydi?**

- Atam ailəsi ilə bir yerdə olmağı xoşlayırdı. Xüsusi olaraq harasa gedib dincəlməklə arası yox idi. Ən çox bağda dincəlirdi. Hərdən ailəlikcə kurortlara gedirdik. Bir dəfə də Göygölə getmişdik. O zamanlar deyəsən, atam Ali Sovetin sədri idi. Sonra tanışları gəldilər, biryerdə Kəpəzə qalxdılar. Bir də gecə yarısı qayıtdılar...

**- Sevda xanım, siz bəstəkar, qardaşınız rəhmətlik Aydın müəllim ixtisasca filoloq idi. Ümumiyyətlə, ixtisas seçəndə Mirzə müəllimin təsiri olubmu?**

- Atam bizim sənət seçməyimizə müdaxilə etməyib.

### *Kaş həmin günlərə qayıda biləydim...*

**- Deyilər, ustad övladından şəyird olmaz, sizin yazı-pozu ilə aranız necədir?**

- Yazı-pozuya nəsə maraq göstərmirdim, laqeyd idim... Bilirsinizmi, indi fikirləşirəm ki, kaş həmin günlərə qayıda biləydim...

**- Sizcə, hər hansı bir sənətkarın sənətinin yaşaması üçün övladının onun sənətini davam etdirməsi vacibdirmi?**

- Çox çətin sual oldu mənim üçün. Amma mən bu fikirlə razılaşmıram. Məgər Nizaminin, Füzulinin, Sabirin övladı atasının sənətini davam etdirmişdi?

**- İstedadın qanla keçməsi fikrinə münasibətiniz necədir?**

- Bu fikirlə razılaşmaq olar...

**- Elə isə Mirzə İbrahimovun sənətini övladlarından hansısa davam etdirdimi?**

- Xeyr, məcburən və ya hansısa məqsədlə yazıçı olmaq olmaz. Bu istedad adamın özündə olmalıdır. Bəlkə də vaxtilə mən özüm laqeyd yanaşmasaydım, yazıçı da ola bilərdim.

**- Nə vaxtsa atanızdan incimisinizmi?**

- Belə şeylər olmayıb. Çünki ondan nəyə görəsə inciməyə mənim haqqım yox idi. Bizi çox ərköyün böyütdü. Nə istəyirdik, onu da alırdı. Heç vaxt bizə "yox" deməyib. Təriflərnək üçün demirəm, atamla anam bizə çox əziz olublar.

**- Ananız hansı sənətin sahibiydi?**

- Anam musiqi müəlliməsiydi, konservatoriyanı bitirmişdi.

**- Atanızla ananız necə tanış olmuşdular?**

- Onları deyəsən, rəhmətlik Nigar xanım Rəfibəyli tanış etmişdi. Nigar xanım anamın rəfiqəsiydi və onun atamla evlənməsində də onun böyük rolu olub.

Ona görə də Rəsul Rzanın ailəsi ilə biz bir evli kimiydik...



**- Atanız xarici səfərlərə gedəndə, sizi də aparırdımı?**

- Atam xarici səfərlərdə çox olub. Həm SSRİ-nin tanınmış yazıçısı idi, həm də ictimai xadim kimi tanınırdı. Ona görə də çox yerə gedirdi. Ancaq bizi özü ilə aparmayıb. Gedəndə, ancaq anamla gedirdi. Xarici səfərləri ilə bağlı çoxlu şəkilləri vardı, onları sonradan arxivlərə verdim.

### *Yerindən duran onun haqqında Moskvaya "donos" yazıb göndərirdi...*

**- Atanızın hansı xasiyyəti sizə keçib?**

- Ola bilsin, insanlara münasibəti. Çünki atam həmişə mənə deyirdi ki, insan gərək ömrü boyu yaxşılıq etsin, heç kimi incitməsin.

**- Ötən əsrin 40-cı illərində Sovet qoşunları İrana girəndə atanız da onlarla olub. İrandakı fəaliyyəti və ordakı qohum- əqrabası haqqında heç danışırdımı? Qohumları ilə əlaqəsi vardımı?**

- Atam həmin illər haqda heç danışmırdı.

Heç kimlə də əlaqəsi yox idi. Sərhədlər açılandan sonra isə İrandan atamın dayısı oğlu gəlmişdi. Bir-iki gün bizdə qalandan sonra getdi...

**- Sərhədlər açılandan sonra Mirzə müəllim İrana getdimi?**

- Xeyr.

**- Niyə?**

- Bilirsinizmi, atam SSRİ-nin dağılması ilə heç cür barışa bilmirdi. Çünki bu hökumət onu yetişdirmişdi. İnanmırdı ki, SSRİ dağıla bilər. Meydan hadisələri vaxtı mən tez-tez mitinqlərə gedirdim. Partbiletimi cıranda, o mənə dedi ki, "vaxt gələcək peşman olacaqsan..."

**- Yeri gəlmişkən, peşman olmamısınız hələ?**

- Vallah, bu suala cavab verməyə çətinlik çəkirəm...



**- Atanız həm də bir neçə il Azərbaycan Ali Sovetinin sədri vəzifəsində çalışıb. Bəlkə bu barədə bir az danışasınız. Hansı çətinlikləri vardı o illərdə?**

- Stalin öləndən sonra -1956-cı ildə atam Ali Sovetin sədri seçildi. O vaxt Azərbaycan dili məsələsini qabartdı. Məsələ qaldırdı ki, bütün təşkilatlarda rəsmi sənədlər Azərbaycan dilində hazırlansın. O zaman atamın düşmənlərinin sayı çoxalmışdı. Yerindən duran onun haqqında Moskvaya "donos" yazıb göndərirdi.

**- Atanız neçə il Ali Sovetin sədri oldu?**

- 1959-cu ilə qədər...

**- Yəni siz yetkinlik yaşına çatıb sənət seçəndə, o, Azərbaycanın yüksək vəzifəli şəxslərindən biri idi. Bəs nə əcəb sizi sonradan siyasət işinə yönləndirmədi?**

- Bayaq da dedim ki, atam bizim sənət seçməyimizə qarışmırdı. Heyləyək, hərənin bir xasiyyəti olur...

**- Mirzə İbrahimovun musiqiyə münasibəti necəydi, müğənnilərdən kimlərə qulaq asmağı xoşlayırdı.**

- O dövrdə ara oxuyanları çox az idi. Atam bütün tanınmış oxuyanların ifalarına qulaq asmağı xoşlayırdı...

**- Sənət adamlarından kimlərlə dostluq edirdi?**

- Tanınmışların hamısı ilə münasibətləri çox isti idi. Bülbül, Hiyazi, Rəşid Behbudov, Fikrət Əmirov, Qara Qarayev və başqaları evimizin əziz qonaqları olublar.

**- Atanızın yeyib-içməklə arası necəydi?**

- Atam anamın hazırladığı yeməkləri çox xoşlayırdı. Hadir hallarda çöldə yemək yeyərdi. Anamın bişirdiyi yeməklərdən başqasını yeməzdi. Ona görə də səfərə gedəndə də çox vaxt anamı da özü ilə aparırdı. İçkiyə də maraq göstərməzdi, məclis xətrinə bir rumka ola bilərdi. Həmişə deyirdi ki, mən bütün məclisləri bir rumka araqla yola vermişəm. Bir rumkadan artıq içməzdi.

**- Siqaret çəkirdimi?**

- Yox, heç vaxt siqaret çəkməyib.

**- Atanızın son günlərini necə xatırlayırsınız?**

- Bayaq da qeyd elədim, SSRİ-nin dağılması atama çox pis təsir etdi. Son vaxtlar yaman əsəbi olmuşdu... Süleyman Rüstəm də SSRİ-nin dağılmasını istəmirdi. Hərdən Süleyman əmi ilə söhbətləşirdi, yenidənqurmanı pisləyirdi...

1993-cü ildə atam yıxılıb bel sümüyünü qırmışdı. Ona görə də onu öz evimə gətirdim. Həmin il dekabr ayının 16-da atam gözlərini əbədi yumdu...

**İLTİFAT**

# "Əfqanıstanda müharibə başlaya bilər"

**Xarici hərbi qüvvələrin geri çəkilməsi ilə Əfqanıstanda vətəndaş müharibəsi başlaya bilər.**

Bunu ABŞ və NATO-nun Əfqanıstandakı qoşunlarının komandanı, general Skott Miller deyib.

"Hazırda ölkədə təhlükəsizlik vəziyyəti yaxşı deyil.



Mövcud tendensiya davam edərsə, vətəndaş müharibəsinin qaçılmaz olacağını deyə bilərik.

Bu, dünyanı narahat etməlidir. Əgər şiddəti azaltmasanız, siyasi həll getdikcə çətinləşəcək", - deyə general bildirib.

**MEHRİBAN**

# Qarabağ mədəni mühitinin vəsfi



Zemfira Məhərrəmli
yazıçı-publisist

**Zaman-zaman apardığımız azadlıq mübarizəsi tarixmizin qılıncla, sözlə yazılan səhifələridir. ”Azadlığı istəmirəm zərrə-zərrə, qram-qram, qolumdakı zəncirləri qıram gərək, qıram, qıram!” deyirdi unudulmaz Xalq şairimiz Xəlil Rza Ulutürk. Azadlıq istəyi xalqımızın damarlarına illərdir axan, canında dövr edən, qan yaddaşına həkk olunan həyat qaynağıdır, dürüst yaşamağa sövq edən vicdanın səsidir. Yurdumuzun ayrılmaz tərkib hissəsi olan Qarabağımız da tariximizin ayrı-ayrı mərhələlərində ağrı-acılı olaylar məngənəsində sıxılıb, nəfəsi təngiyib. Başı olmazın müsibətlər çəkib.**

Şahanə gözəlliyi, saf iqlimi göz qamaşdıran Qarabağa qənim olanlar bu yağlı tikəni ələ keçirmək, tariximizi təhrif etmək üçün dəridən-qabıqdan çıxıblar. Bu yurd yerimiz fars, rus və erməni millətçilərinin işğalları, qanlı hərb qovğaları ilə üz-üzə qalıb. Təbiətinə, fauna və florasına zərər vurulub, yurddaşlarımız ev-eşiyindən perik düşüb, memarlıq inciləri, bənzərsiz tarixi abidələrimiz amansızcasına dağıdılıb, mədəniyyətimizə rəxnələr vurulub. Bunlar ötən əsrin əvvəllərində, həm də XX yüzilliyin sonlarında erməni canilərin və Qafqazda daim münaqişələr yaradan rus imperiyasının qanlı əməlləri idi. Bütün ağrı-acılı olaylara, yaşanan üzüntülərə baxmayaraq, əsrarəngiz təbii gözəllikləri, Xarıbülbülü ürəkləri ovsunlayan, füsunkar mənzərəli Qarabağ diyarı dəyərli əsərlər yaradan söz adamlarının, fırçasının qüdrətiylə möhtəşəm tablolara həyat verən rəssamlarımızın həmişə İlham mənbəyi olub. Qarabağ həm də Azərbaycanın mədəniyyət beşiyi, klassik musiqimizin pərvəriş tapdığı məkandır.

### Bu əzəli-əbədi yurd yerimizdə

Vətəni vəsf edən, musiqitək axıb ruha qida verən gözəl şeirlər yazılıb, məmləkətimizin tərənnümünə çevrilmiş nəğmələr pərvazlanıb. Hələ xalq mahnılarımızı, muğamlarımızı məharətlə ifa edən, ilahi səsi könülləri ehtizaza gətirən xanəndələri, müğənniləri demirik. Zəngin bədii irsin, unikal musiqi nümunələrimizin qorunması, nəsildən-nəslə ötürülməsi tarixi zərurət, həm də bir vicdan, mənəviyyat məsələsidir. Görkəmli yazıçı-dramaturq, şair, tərcüməçi Seyran Səxavətin qələmə aldığı ”Bəhanə” romanı məhz bu məqsəd və amalla hasilə gəlib. Əsər ustad xanəndə Süleyman Abdullayevin həyat və sənət yoluna həsr edilib.

### Romanı oxuduqca

Qarabağ ədəbi-mədəni mühitində bu yurdun sehrli səs sahiblərinin, xanəndələrin də öz yeri və nəfəsi olması qənaətimiz bir daha təsdiqini tapır. İstedad - uca Yaradanın insan övladına lütfü, əta etdiyi qiymətli bəxşişdir. Dərin təxəyyülü, dünyagörüşü, gözəlliyə vurğun ürəyi və sələflərinin miras qoyduğu mədəni irsə malik olanlar böyük mədəniyyət hasilə gətirə və tarixdə iz qoya bilərlər. Əsər bizə bu məramları, mənəvi dəyərlərimizi öyrənməyi, irsi yaddaşımızı göz bəbəyi kimi qorumağı diktə edir.

***Axı, insanları həm də mədəniyyət, mənəvi bağlar birləşdirir. Zamanın çarxı fırlandıqca, illər, qərinələr bir-birini əvəz etdikcə mədəniyyət tarixmizə neçə-neçə azman sənətkarın adı həkk olunur. Sənət sərrafı, muğam ustası Süleyman Abdullayev kimi. Bu sənədli romanın ”Bəhanə” adlandırılması da şərtidir, daha doğrusu, elə bir bəhanədir. Müəllif bununla demək istəyir ki, baş qəhrəmanım barədə danışsam da, digər korifey xanəndələrimizi - Cabbar Qaryağdıoğlu, Keçəçioğlu Məhəmməd, Segah İslam, Məşədi Məhəmməd Fərzəliyev, Xan Şuşinski, Seyid Şuşinskini... də unutmadım. Bu əsər son yüz il ərzində yurdumuzun muğam mənzərəsini gözlərimiz qarşısında canlandırır, dərin milli məzmunu ilə yanaşı, ümumbəşəriliyi ilə seçilir. Haqqında söz açdığımız roman konkret bir regionun - Qarabağ torpağının yetişdirdiyi sənətkar oğullarımıza ucaldılan abidədir. Görkəmli Xalq şairimiz Bəxtiyar Vahabzadənin sözləri ilə desək, ”Mahnımızda yaşar bizim babaların addım səsi.”***

Hər bir sənətkara ”Dədə” demirlər. Dədə Şəmşir, Dədə Süleyman kimi. Ustad xanəndə S.Abdullayev isə sənətdə təkrarsızlığına görə dəyərləndirilib, bu adla çağırılır. Onun muğam yaradıcılığı nəhayətsiz bir ümmandır. Ona görə ”ümman” deyirəm ki, sənətkarın ruhunun tərcümanı, özü ilə ilahi söhbəti, mükaliməsi olan, büllur bulaqtək çağlayan bu yaradıcılıq insanı mənən təzələyir, saflaşdırır, onu yaşamağa səsləyir.

Əslən qarabağlı olan, Füzuli bölgəmizin Yağlıvənd kəndində dünyaya göz açmış Seyran Səxavət özü də, dostlarının, doğmalarının dediyinə görə, erkən gəncliyindən gözəl səsə malik olub. Gənc şairin ədəbiyyata lirik şeirlərlə qədəm basması hər şeyi üstələyib. Söz adamı ölməz xalq mahnılarımızın, muğamlarımızın aşiqidir. Bəlkə elə bu sevgi, vurğunluq onu Qarabağ mədəni mühitinin aparıcı simaları barədə bu əsəri yazmağa sövq edib.

***Yazıçı ünlü sənətçilərin yaradıcılığına özünəməxsus yanaşma sərgiləyir, necə deyərlər, öz prizmasından baxır. Seyran Səxavət Qarabağ mədəni cameəsinin***



***keçdiyi yolun ayrı-ayrı dönəmlərinin mənzərəsini də nəql edir, sənət adamları ilə canlı dialoqlar bu mətləbləri açmaqda yazıçıya kömək edir. Müəllif musiqi məclislərinin mədəni mühitin inkişafına müsbət təsirindən, klassik musiqi ənənələrinin davam və inkişaf etdirilməsi zərurətindən də söz açır. Belə bir fikir təlqin edilir ki, sələflərin sənətkarlığı onların yetirmələri üçün möhkəm bünövrə, təməldir. Xələflər ustadlarına sıx, qırılmaz tellərlə bağlı olsalar da, sənətdə öz cığırları - rizləri var. Yazıçı öz qəhrəmanlarının, yüksəlişini izləyir, canlı, duzlu-məzəli söhbətlərlə onların keçdiyi həyat yoluna işıq salır.***

Muğamın çeşidli, məxsusi cəhətlərindən söz açan müəllifin ulu xalq sənətinin incəliklərinə bələdliyinə, fəhm etdiyi bilgilərə, zaman axarının mədəni hadisələrindən baş çıxarmasına heyran qalırsan. Bu xanəndələr, yurd, millət təəssübkeşliyini öz sənət dünyasında hər şeydən üstün tuturlar. ”Bəhanə” romanına ön söz yazan Babək Aruslunun bir fikrinə diqqət yetirək: ”Muğam öz ifaçısını doğur. Günəş səhəri doğan kimi... Muğam, zamanlar arasında sərhəddi... Zaman yalnız muğamın pərdələri arasında öz ölçüsünü itirir. Əslində bu elə zamanın öz ölçüləridir... Muğam zamanı sərhədsiz qoyduğu kimi, zaman da onun sirli səsinə çevrilərək əbədiyyət qazanır... Cabbar Qaryağdıoğlu formaca Seyid Şuşinskiyə, Seyid Şuşinski Xan Şuşinskiyə, Xan Şuşinski Yaqub Məmmədova, Yaqub Məmmədov Arif Babayevə, Süleyman Abdullayevə və Sabir Mirzəyevə çevrilsə də, əvəzində o ilahi səs məzmun etibarı ilə dəyişməmişdir.”

### Bədii ümumiləşdirmə imkanları

geniş olan müəllifin bu romanının məqsəd və məramı da oxucunu ilahi səsin yaratdığı muğam dünyasına aparmaqdır. Adamın özü ilə sözü, şəxsiyyəti ilə yaradıcılığı bir-birini tamamlayanda bütövlük, tamlıq yaranır. Seyran Səxavət belə bütöv insanlardandır. Həqiqətə inanan, səcdə edən ziyalıdır, yaradıcılığı ilə gerçəkliyə, haqq-ədalətə tapınır. Mərhum Xalq şairimiz Musa Yaqubun fikrincə, ”dövrün içində yaşaya-yaşaya prosesləri ümumiləşdirib bədiiləşdirmək olduqca çətin məsələdir. Zaman keçəndən sonra həmin prosesləri təhlil etmək, hardasa asanlaşır. Seyran hər şeyi zamanında qələmə alan, amma zamanla, vaxtla, dövranla əlbəyaxa olan sənətkardır... Bu əsər həm istedadlı yazıçı ? şair qələmi ilə, həm də cəsarətli jurnalist qələmi ilə yazılıb. Həm də burda Seyran dövrü, zamanı təhlil edən bir filosof qələmi ilə məsələlərə münasibət bildirir... Seyran yaradıcılığı qiymətlidir. Adı kimi ürəyi də səxavətlidir. Yəqin Səxavət təxəllüsünü də ona görə götürüb.”

### “Bəhanə” romanı

maraqlı müsahibələr üzərində qurulduğu üçün bir qədər fərqlidir. Bu müsahibələrsiz əsərdə sanki nəsə çatışmayacaqdı. Danışıq dilinin canlılığı və saflığı da əsərin özəlliyi, özünəməxsusluğudur. Yazıçının inancının canı, özəyi səmimiyyətdir.

Əsərdə Birinci Qarabağ savaşının həyatımıza gətirdiyi məşəqqətləri, itirilmiş torpaqlarımızın ağrı-acısını, isti ocağını tərk etmək məcburiyyətində qalmış soydaşlarımızın çətin güzəranını xatırladan həyat səhnələri ilə də qarşılaşırıq. Doğmaları ilə Dədə Süleymanın arasında belə bir söhbət olur:

***- Dədə, Qarabağsız Azərbaycanı necə görürsən?***

***- Qarabağsız Azərbaycanı var-dövlətli, boy-buxunlu, enlikürəkli, axtalanmış bir kişiyə oxşadıram... Yüz dəfə soruşsalar, cavab elə budu, vəssalam!”***

Yaxud belə bir səhnə ilə də qarşılaşırıq: ”Adlara fikir ver - Stepanakert, Martuni, Hadrut, Mardakert... Bax bunların ümumi orta yaş səviyyəsini hesablasaq, yüz iyirmi il ancaq eləyər.

Onda belə çıxır ki, Azərbaycan xalqı gəlmədir, özü də yüz iyirmi il bundan qabaq gəlib çıxıb, yazıq, əzabkeş erməni xalqı düz deyirmiş də... Belə şeylər var, dədə. - Sən dediyin rayonların adını yaxşı ki, dəyişdilər, öz adlarını qaytardılar, yoxsa tariximiz dolaşıq düşərdi.”

***Əsərdə belə bir fikir də yazıçının məramına xidmət edir: ”Səsini erməni gülləsi yarıb keçə bilməyən Güllü Muradova oxuduğu ”Segah”la bilirsiniz nə deyirdi? O deyirdi ki, cənab Azərbaycan xalqı, gəlin Qarabağı azad eliyək, vallah, Qarabağ erməni xörəyi deyil.”***

Romandan misal çəkdiyimiz bu parçalar olduqca düşündürücüdür. Dünyanın hər üzünü görmüş Dədə Süleymanın ürək ağrısı ilə söylədikləri elə yazıçının da qəlbini söküb dağlayan, ağrıdan fikirlər idi. Dərd əlindən ən gözəl hissləri korşalanlara, çarəsiz, mümkünsüz bir qayıdışın əzabını yaşayanlara, məğlubiyyətin acısını anlamayanlara, sanki ömrünü-gününü daşlayıb yuxuya dalanlara, biganələrə deyilirdi həmin sözlər. Bu, özünü ağlayanlara bir ismarış idi.

Əsərdə yazıçının qələm dostlarının səsi-avazı möcüzə olan sənətkarlarımız barədə fikirləri də yer alıb. Bir dəfə Süleymandan söz düşəndə şair Vaqif Bəhmənli deyib ki, ”oturasan, dizlərini qucaqlayıb Süleymanın səsini dinləyəsən, hönkür-hönkür ağlayasan...

Yerdən ”Mənsuriyyə”nin ”Ağ segah”ına qədər boy verəsən, dünyanın hər yerindən görünəsən - dünya da sənə baxıb, təmizlənə, paklaşa.”

Şair Dədə Süleymana belə bir qəzəl də yazıb - ”Oxusun” rədifli:

*Qarabağ ellərinin bəxti bəyaz günlərini,*
*Köndələndən su içən bir qara oğlan oxusun.*

*Dədənin dərdi qədim, dillənə dillər dirənər,*
*Ən dərin dərdləri qoy tüstüsü qəlyan oxusun.*

*Ulu bir səs atasız qaldı, ey Allah, de niyə?*
*Cabbar bəy, Seyid ağa, Şah Şuşadan Xan oxusun.*

*Dədənin öz səsidi, şanlı Süleyman Dədənin,*
*O mübarək səsinə Bəhmənli qurban, oxusun.*

**Səfalı Qarabağımızı xatırladan, cəh-cəh vurub cövlan edən, dağı-daşı belə isidən o ilahi səslərin hərarətindən ürəyimiz heç vaxt soyumayacaq. Təzə-tər, təravətli səslərin.**



Əjdər Qiyaslı

### AZƏRBAYCAN POLİSİ

*Xalqın iftixarıdı,*
*Düz əhdi, ilqarıdı.*
*Uca dağ vüqarıdı,*
*Azərbaycan polisi.*

*Çaylar kimi çağlıdı,*
*El-obaya bağlıdı.*
*Yanar gur çırağıdı.*
*Azərbaycan polisi.*

*Keşikdə mətin durur,*
*Qəlbində böyük qürur.*
*Hədəfi sərrast vurur,*
*Azərbaycan polisi.*

*Çox sınaqdan keçibdi,*
*Vətən andı içibdi.*
*Uğurlu yol seçibdi,*
*Azərbaycan polisi.*

*Şərəflidi, şanlıdı,*
*Güclü Vətən canlıdı.*
*Azəri ünvanlıdı,*
*Azərbaycan polisi.*

*El-obadan güc alır,*
*Şanlı qələbə çalır.*
*Vilayətlə ucalır,*
*Azərbaycan polisi.*

*Olub döyünən ürək,*
*Vətənə hər an gərək.*
*Bayramın çox mübarək,*
*Azərbaycan polisi.*

### BMT: Turizm bu tarixdən tam bərpa olunacaq

**2021-ci ildə turizm sahəsindəki durğunluq davam edəcək. Bu məlumat BMT-nin Ümumdünya Turist Təşkilatının hesabatında yer alıb.**

**Hesabatda turizm sektorunun 2023-cü ildən tez tam bərpa olunmyacağı bildirilib.**

**Təşkilat 2020-ci ildə beynəlxalq səfərlərin 73% azaldığı və nəticədə turizm sektorunda itkilərin 2,4 trilyon dollar təşkil etdiyini vurğulayıb.**

**MEHRİBAN**

# «Vüsal Aydının dedektivi»

**Səmimi olsam, dedektiv ədəbiyyatı ciddi qəbul etmirəm. Romançılıqda mənə ən primitiv, bir qədər lazımsız gələn janr, dedektiv janrdır, amma vacibliyini də mütləq bilirəm. Məsələn, məndən kitab oxumayan biri ”ilk hansı kitabı oxuyum?” soruşarsa, mütləq şəkildə dedektiv ədəbiyyatı tövsiyyə edirəm. Çünki dedektiv ədəbiyyat kitaba maraq oyadır, heç vaxt kitab oxumamısansa, oxumaq istəyirsən. Bu yerdə bizimkilərdən Çingiz Abdullayev, Elxan Elatlı, xaricilərdən də Aqata xanım Kristi köməyimə çatır. Allah dadlarına yetsin. Amma indi haqqında danışmaq istədiyim dedektiv roman fikirlərimi bir qədər rəndələdi. Haşa, yenə eyni fikirdəyəm, dedektiv roman mənim üçün heç vaxt ciddi meyar ola bilməz, amma ”dedektivi belə də yazmaq olarmış” dedim içimdə. Bir də görürsən ki, istedadlı bir adam yapışıb dedektiv yazmağın yaxasından, əl çəkmir. Məhz Vüsal Aydını da bu cür kateqoriyaya aid edirəm. Qeyri-ciddi hesab etdiyim dedektiv janrda yazdığı bu cür romanı başqa bir mövzuya həsr etsəydi, məncə, daha çox uğurlu olardı. Amma bütün hallarda ortada mətn var və bunun üzərindən danışmaq lazımdı. Üç hissəli triologiyadan ibarət olacaq bu mətnin iki hissəsini oxudum. Dr. Səid-” Bir milyonluq xəyanət”, ”İkinci Ruhun Kölgəsində”.**

Əsərin mahiyyətini təşkil edən intiharlar, eyni zamanda onların arxasında dayanan məqamları araşdıran Doktor Səid.

Daha konkret, hər intiharı cinayət hesab edən yazıçı, intiharların arxasında dayanan, amma görünməyən nələrisə göstərməyə, tapmağa çalışıb. Deyərdim ki, hazırda bizdə ən fərqli dedektiv ədəbiyyat bu romanlardır. Söhbət sırf fərqlilikdən gedir. Əgər roman qətiyyən alınmasa idi belə, yenə də fərqli hesab etmək olardı. Əsas məsələ ”Psixoloji-dedektivdə” bizdə yazanın olmamasıdır. Xaricdə varmı? Rastlaşmamışam. Bəlkə də çox dedektiv oxumadığıma görə belədir.

Dedektiv əsərləri həm də cümlə-cümlə təhlil etmək olmur. Klassik dedektiv əsərlərin süjeti bəlli olduğundan, heç orada dil məsələlərinə də toxunmaq gərəksizdir. Sadəcə, ortada hadisə var və sən bunu yazırsan. Adətən, dedektiv əsərləri hazır materiallar üzərinə yazılsa da, etiraf etmək gərəkir ki, Vüsal Aydının dedektivləri birbaşa beyin, yazıçı məhsuludur. Əsərdə diqqətimi çəkən bir-iki hissəni nəzərinizə çatdıra bilərəm. Heç kim heç kimin ölümünə qərar verə bilməz. Nə başqası, nə özü. Biz yaşamağa məcburuq! Bunun sorğu-sualı yoxdur. Bizim orqanlarımızdan heç biri öz fəaliyyətini səbəbsiz dayandırmır. Ölənə qədər işləməyə məcburdurlar. Bu məsuliyyətdən heç vaxt boyun qaçırmırlar. Ancaq biz insanlar o qədər eqoist, o qədər də düşüncəsizik ki, yaşadığımız həyatların bizə aid olduğuna inanırıq.”



***- Əsərin bu hissəsini oxuduqca düşünməyə başladım. Yaşamağa məcburuq! Qəribə səslənir. Məsələn, mən indiyə qədər belə olduğunu düşünmürdüm. Yaşamağa məcbur deyilsən, amma müəllifin bu hissədəki son cümləsi düşündürür. Yaşadığımız həyatların bizə aid olduğuna inanırıq. Bəlkə, həqiqətən belədir? Təbii, burda fərdlərin fikir ayrılığı yaranır, müəllif öz inandığı həqiqəti, ideologiyanı irəli mütləq həqiqət kimi sürür, amma bu, ya həqiqətən belədirsə?***

Oxuduğum əsərlərdə məni çəkən ilk məsələlərdən biri də dil məsələsidir. Hər nə qədər dedektivdə buna toxunmaq gərəksiz olsa da. Vüsal Aydının bədiilik cəhdləri, bəli, məhz cəhdləri deyərdim bir o qədər də uğurlu deyil. Bir az da dəqiq desəm, mənə sanki qəsdən uzadılır, qəsdən bədii olsun deyə yazılmış kimi gəlirdi. Uzun cümlələr deyəndə ağlıma ilk olaraq Orhan Pamuk gəlir. Pamukun uzun cümlələrin o qədər çox sevirəm ki, hər bədii təsvirli uzun cümlə çəkmir məni. Elə Vüsal Aydında da çəkmədi. İfadələrdə də yanlışlıq var. Məsələn, qaşqabaqlı qara buludlar. Uğursuz ifadədir. Qara buludun qaşqabağı? Yəqin ki, aydın oldu.

”Qaşqabaqlı qara buludlar hücum əmri gözləyən saysız-hesabsız acıqlı və hirsli əsgərlərdən ibarət müharibəyə hazır orduya, ildırım isə öz bağırtısı ilə onları vəcdə gətirən komandirə bənzəyirdi. Elə bil, ”diqqət”, ”hazır ol” kimi əmrlər verirdi ki, buludun canından qopan yağış damcıları yerə var gücləri ilə hücum çəksin. Ancaq bu ”əsgərlər” yerə can almağa yox, can verməyə gələcəkdilər.”

İkinci Ruhun Kölgəsi adlı bu kitab, Dr. Səid trilogiyasından olan ikinci kitabdır. Birinci haqqında bir qədər danışdıq, ikinci haqqında sadəcə, bir neçə cümlə deyərək yazıma xitam vermək istərəm. Yazı dedektiv yazı deyil ki, durum uzadıb nələrinsə üstünü açmağa çalışım. Özünüz oxuyub agah olarsınız.

”Bir milyonluq xəyanət”-də taleyi sirli qalmış bütün obrazların mahiyyətindəki gizlilik, ”İkinci ruhun kölgəsi” romanında yenidən ortaya çıxır. Bir növ, yazıçı ilə dedektivin qarşı durmasını görürük.

Roman qəribə, anlaşılmaz bir ölüm hadisəsi ilə başlayır və biz baş qəhrəmanla birlikdə insan psixologiyasını alt-üst edən hadisələrin ağuşuna düşürük. Bütün bunlara baxmayaraq, əsəri tamamilə psixoloji dedektiv hesab etmək doğru olmaz. Romanda detektiv əsərlərə xas olan detallar yaxşı işlənsə də, ”İkinci ruhun kölgəsi” daha çox psixoloji romana girir. Yəni, birinci hissəni tam olaraq belə adlandırmaq olmaz.

***-Birləşmiş Krallıqda böyümüş və təhsil almış, əsərlərini ingilis dilində yazan və yayımlayan soyuqqanlı yazıçı Çinar.***

***- Qatil psixologiyasını anlamağa çalışan Aida.***

***-”4+1 Qardaşları” və s. Bütün bunlar əsərə xüsusi rəng qatır.***

***-Həyat yollarında azıb qalmış, dəfələrlə intihara cəhd edən Banu.***

”Bir milyonluq xəyanət” romanından oxuculara yaxşı tanış olan iti zəkalı, müşahidəsi ilə orqanları belə təəccübləndirən Dr.Səid, cinayətin üstünü aça biləcəkmi?

Dediyimiz kimi, yazıçı və detektiv qarşı-qarşıyadır, oxucular isə harda olduğunu özü müəyyən eləsin.

Üçüncü kitabda görüşənədək.

**Orxan Saffari**

### İgid döyüşçü

*Şuşanın azad olunmasında misilsiz qəhrəmanlıqlar göstərmiş "Kölgə" ləqəbli döyüşçü, Xüsusi Təyinatlı Qüvvələrin kapitanı Samir Mikayıllının unudulmaz xatirəsinə*



***Könüllü***
***döyüşə getdin.***
***Neçə***
***düşmən gəbərtdin.***
***Ölümə ölümlə***
***qalib gəldin.***
***Bürünüb***
***üçrəngli bayrağımıza,***
***Pənah gətirdin***
***Doğma torpağımıza...***
***Sıxdın***
***əlini şəhadətin,***
***sinə gərdi***
***ağrılara cəsarətin.***

***Ucaldın***
***ucadan-uca***
***Şəhidlik zirvəsinə,***
***Səs verdin***
***Əbədiyyətin səsinə...***
***Həyatı***
***tərk etdin***
***gənc yaşında,***

***Ancaq adın***
***həmişəlik qalacaq***
***ürəklərin başında***
***Adın çəkiləndə***
***Kəsilərdi***
***düşmənin nəfəsi,***
***Sarsıdardı nakəsi.***
***Qıydın cavan canına,***
***Bələdin***
***Vətən torpağını***
***al qanına.***
***Mənim şəhid qardaşım!***
***Xatirini***
***əziz tutacağıq.***
***Nə qədər ki,***
***var ömrüm, yaşım.***
***Təki sən***
***rahat uyu, yat.***
***"Kölgə" kimi***
***yenə də***
***Düşmənin yuxusuna***
***haram qat...***

***Adil MİSİRLİ***

# 155 süni balıq gölünün fəaliyyəti dayandırılıb

**Azərbaycan torpaq qanunvericiliyinin tələbləri pozulmaqla yaradılan süni balıq göllərinin təhlili aparılır. İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin bu sahədə həyata keçirdiyi tədbirlər nəticəsində ölkə üzrə ümumilikdə 558 balıq gölü müəyyən edilib və onlar barəsində məlumat bankı yaradılıb.**

Əmlak Məsələləri Dövlət Xidmətindən verilən məlumata görə,monitorinqlər nəticəsində indiyədək mövcud torpaq qanunvericiliyi pozulmaqla yaradılmış 155 süni gölün fəaliyyəti dayandırılıb. Nəticədə 100 hektarlarla torpaq sahəsi əvvəlki vəziyyətinə qaytarılıb. Hazırda 403 təbii və süni balıq gölü mövcuddur. Bunlardan 33-ü təbii, 370-i isə süni balıq göludür. Süni balıq göllərindən 14-ü meşə fondu torpaqlarında, 37-si su fondunda, 319-u isə kənd təsərrüfatı təyinatlı torpaqlarda yaradılıb. Təyinatına uyğun istifadə olunmayan torpaq sahələrində mövcud olan 344 göl barədə inzibati protokol tərtib edilib. 28 balıq gölünün fəaliyyətində torpaq sahəsinin özbaşına zəbt olunması halları olduğundan tərtib edilmiş sənədlər tədbir görülməsi üçün hüquq mühafizə orqanlarına göndərilib.



Monitorinqlər zamanı balıq göllərinin əsasən dövlət ehtiyat fondu, qış otlaqları, bələdiyyənin örüş torpaqlarında və vətəndaşların pay torpaqlarında yaradıldığı məlum olub. Süni balıq göllərinin ən çox Neftçala, Salyan, Hacıqabul rayonlarında yaradılması aşkar edilib.

Süni balıq göllərinin yaradılması məqsədilə torpaq sahəsinin ayrılması üçün ”Torpaq icarəsi haqqında” Qanuna uyğun olaraq, müvafiq rəyin verilməsi ilə bağlı (yerləşmə sxemi əlavə edilməklə) rayon (şəhər) icra hakimiyyətləri tərəfindən Əmlak Məsələləri Dövlət Xidmətinə müraciət edilir. Müraciət əsasında Torpaq Məcəlləsinin 65-ci maddəsinə uyğun olaraq sifarişçinin vəsaiti hesabına yerquruluşu planı hazırlanaraq müvafiq rəy verilir.

Verilmiş rəy əsasında rayon (şəhər) icra hakimiyyəti ilə icarəyə götürən arasında icarə müqaviləsi bağlanılır. İcarəçi tərəfindən təqdim edilmiş icarə müqaviləsi və müvafiq sənədlər əsasında daşınmaz əmlakın dövlət reyestrində qeydiyyat aparılır.

**Qeyd edək ki, balıq gölünün yaradılması üçün torpaq ayrılması barədə müraciətlər Xidmətə daxil olduqda yalnız təyinatı üzrə nəzərdə tutulmuş təbii sututarların (gölməçə, qamışlıq, axmaz və s.) yerləşdiyi torpaqlara müsbət rəy verilir.**

# Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

№ 68 (2249) 1 iyul 2021-ci il

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Lerikin ürəkaçan inkişafı

**Bir coğrafi məkan olaraq Azərbaycanın ərazisi həm ekoloji baxımdan, həm də iqtisadi və siyasi anlamda həmişə diqqəti çəkib. Ona görə də hələ Sovet dönəmindən çox-çox əvvəllərdə, hətta Sovetin özünün mövcud olduğu dönəmdə də ölkəmizə həris maraqlar azalmayıb. İşğal istəyi heç vaxt düşmənlərimizin yaddaşından, niyyətindən silinməyibdi. Ona görə də Azərbaycanın inkişafı, tərəqqisi bu gün də yaxın-uzaq gücləri qıcıqlandırır, onların "sönməyən arzuları"na əlavə təkan verir. Açıq şəkildə görürük və izləyirik ki, törədilən təxribatlar Azərbaycanın xəritəsi ilə bağlı elektron mediada yayımlanan qərəzli yalnışlıqlar, bizim suverenliyimizə, dövlətçiliyimizə, həm də təbii ki, inkişafımıza edilən qəsddi, vurulan zərbədi. Bütün bunlara baxmayaraq ölkəmiz özünün iqtisadi-siyasi kursuna sadiq qalaraq Ulu Öndərimiz Heydər Əliyev cənablarının özülünü qoyduğu strategiya ilə yolunu davam etdirir.**

Bu gün Azərbaycan xalqının qarantı olan ölkə prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında özünün uğurlu inkişaf yolunda nailiyyətlər əldə edən Azərbaycan bir dövlət olaraq təkcə regionda deyil, həm də dünya çapında özünü birmənalı şəkildə sübut edib. Bizim iqtisadi uğurlarımız, xüsusilə, dünyanı bürüyən pandemiya şəraitində Azərbaycan iqtisadiyyatının öz sabitliyini qoruyub saxlaya bilməsi ən önəmli uğurlardan sayılır. Həmin uğurlar da təbii ki, ölkənin bütün ərazilərinin inkişaf etdirilməsinin nəticəsidir. İstər Aran, istər Dağlıq bölgələrimizdə ölkə prezidentinin Regionların İnkişafına Dair Dövlət Proqramına uyğun olaraq planlı şəkildə bərpa, təmir, yenidənqurma işləri həyata keçirilir. Həmin bölgələrimizdən biri də Lerik rayonudur.

Dağlar qoynunda yerləşən, özünün coğrafi mənzərəsi ilə həmişə diqqəti çəkən Lerik rayonu bu gün yeni bir bölgə kimi diqqət mərkəzindədi. Bu fikri ona görə vurğulayıram ki, Sovet dönəminin kənd təsərrüfatı rayonu sayılan Lerik bu gün daha böyük və yeni statuslar da əldə edib.



Lerik rayonu onunla həmsərhəd olan Yardımlı, Lənkəran rayonları kimi daha çox dağlıq mühitinin yetirə biləcəyi məhsulların istehsalı ilə fərqlənir. Burada heyvandarlığın inkişafına xüsusi önəm verilir. Bu da otlaq sahələrinin, meşə zolaqlarının olmasından qaynaqlanır. Yəni, kənd adamları öz heyvanlarını bəsləmək və məhsuldarlıq əldə etmək üçün münbit şəraitə malikdilər. Ona görə də burada heyvandarlıq məhsullarının, xüsusilə ət və süd istehsalının genişlənməsinə və artım əldə edilməsinə ilbəil diqqər artır. Heç də təsadüfi deyil ki, Lerikdə istehsal olunan ət və süd məhsulları artıq ölkənin müxtəlif ticarət müəssisələrində də alıcılara təqdim olunur.

Bu gün Lerik rayonunda istehsal olunan əkinçilik məhsulları da həm rayon sakinlərinin tələbatının ödənilməsində, həm də respublika sakinlərinin həyat şəraitinin yüksəlməsində öz sözünü deyə bilir. Burada yetişdirilən dənli bitkilər, eləcə də tütün istehsalı məhsuldarlığı ilə seçilir. Yəni, Lerik rayonu sakinləri həm dövlət sifarişi kimi, həm də fərdi qaydada əkinçiliyin inkişaf etdirilməsinə böyük maraq göstərir. Bu da öz növbəsində insanların bazar zənbilinə və ailə büdcəsinə müsbət mənada göstərilən təsir, yəni onun imkanlarının genişlənib artması deməkdir.

Lerik rayonunda kifayət qədər meşə zolaqları olduğundan, burada ağac materiallarının emalı da diqqətdə saxlanır. Bu da ölkə əhalisinin mebel tələbatında müəyyən rol oynayır. Aparılan müşahidələr göstərir ki, Lerik rayonunda kənd təsərrüfatı ilə yanaşı, turizmin inkişafı üçün də böyük perspektivlər var. Elə Sovet dönəmindən fərqli olaraq bu gün Lerik rayonunun həm yerli, həm xarici turistlərin üz tutması da burudakı coğrafi və ekoloji mənzərə ilə yanaşı həm də bölgənin qədim tarixə malik olmasıdı. Lerik rayonu ərazisində olan tarixi abidələr buradakı səfalı bulaqlar, təbii mənzərələr, turistlərə xoş anlar yaşamağa imkan verir.

Ona görə də bu sahənin inkişaf etdirilməsinə müasir otellərin, xidmət sahələrinin yaradılmasına diqqəti artırmaq lazımdır. Düşünürük ki, rayon rəhbərliyi, eləcə də dövlətin aidiyyatı qurumları bu məsələnin daim diqqət mərkəzində saxlayacaq. Çünki Azərbaycana, eləcə də onun bir parçası olan Lerik rayonuna turistlərin cəlb olunması həm iqtisadi baxımdan, həm də siyasi baxımdan çox önəmlidi. Bu ölkəmizin tanıdılması, onun tarixinin öyrənilməsi maddi mədəniyyət nümunələrimizin reklamı üçün böyük fürsətdi. Bütün hallarda Lerik rayonunun iqtisadi tərəqqisi Azərbaycanın uğuru deməkdir.

Azərbaycanın digər bölgələrində olduğu kimi, Lerik rayonunun ərazisində, eləcə də rayon mərkəzində tikinti-abadlıq işlərinin planlı şəkildə həyata keçirilməsi rayon icra hakimiyyəti başçısının və onun yanında fəaliyyət göstərən şuranın hər an diqqət yetirdiyi məsələdir. Çünki paytaxtdan uzaqda yerləşən Lerikdə müasir infrastrukturun olması, insanların böyük dünyanın uğurlarından yararlanması hüququ onu deməyə əsas verir ki, Azərbaycanın istənilən nöqtəsində vətəndaşlarımıza yüksək diqqət və qayğı göstərilməlidi. Elə Azərbaycan Prezidentinin də hər bir məmurdan tələbi məhz budur.



Bir az da konkret desək, hər bir məmur xalqına, dövlətinə xidmət etməlidi. Belə olan halda uğurlarımız da, nailiyyətlərimz də həm ürək açar, həm də insanlarımızın dövlətə bağlılığını gücləndirər.

**Lerikdə aparılan tikinti-abadlıq işləri yolların, səkilərin təmiri, yenilərin çəkilməsi, su, elektrik, rabitə, qaz və digər məsələlərin vaxtında həll edilməsi də bölgədə həyat səviyyəsini yüksəldən amillərdəndi. Bu məqamda səhiyyənin, təhsilin, bütövlükdə mədəniyyət sahəsinin inkişaf etdirilməsinin zəruriliyini də unutmaq olmaz. Çünki zəhmət adamının, torpağını, yurdunu sevən insanın sağlamlığı, təhsil imkanından yararlanmağı, mədəni istirahəti onun ən böyük hüquqlarındandır. Bax, bu mənada bu gün Lerik Rayon İcra Hakimiyyəti başçısının səlahiyyətlərini icra edən Cəlil Baxşıyev cənablarının öz komandası ilə birlikdə Azərbaycan Prezidentinin qarşıya qoyduğu məsələləri uğurla və vaxtında icrasını təmin etməsi çox vacibdir. Lerikdə bu gün gördüklərimiz deməyə əsas verir ki, bu qədim bölgəmiz özünün yeni dövrünü yaşayır - uğurlu və inkişaf edən dövrünü!**

**Əbülfət MƏDƏTOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

# "SALAM OLSUN" KİTABINA - SALAM



***İFTİXAR***
***Sənətşünaslıq üzrə fəlsəfə doktoru***

**Böyük ədəbiyyatı yaradanların hər birinin, hissləri həssas, duyğuları həlim, məfkurəsi ülvi, əqidəsi düz, idrakı dərin, zəkası nurlu, təfəkkürü geniş, təxəyyülü qaynar, ağlı kəsərli, ilhamı yüksək, eşqi tükənməz, məhəbbəti səmimi, insanlığı mükəmməl, vicdanı saf və təmizdir. Çünki onların hər birinin ruhu Tanrı hökmü ilə əfsunlanmış, Tanrının hökmü ilə "yaradıcılar şəcərəsi"nə mənsubluq haqqı verilmiş şəxsiyyətlərdir. Məhz bu haqqa görə də onların, hansı millətə mənsubluğundan və ya hansı inancı əxs etmələrindən, eləcə də harada yaşamalarından asılı olmayaraq, hər birinin, bir-biri ilə təhtələn yaradanlar yaxınlığı, bağlılığı və ya qohumluğu, simsarlığı vardır. Yəni bütün yaradıcı insanların Tanrıdan gələn yüksək, əlahiddə qabiliyyətləri onları bir vəhdətdə birləşdirir və məslək qohumuna çevirir. (Heç şübhəsiz ki, onların arasında əfsunu pozulanlar və dəngəsini itirənlər də mövcuddur!). Odur ki, böyük ədəbiyyatı yaradanların hər biri əlçatmaz üfüqlərin sakinləridirlər. Bu üfüqlərdə bərqərar olmaq üçün xüsusi canfəşanlığa heç bir lüzum yoxdur. Hər bir yaradıcının yaradıcılığının cövhəri, onun yaradıcılıq xəzinəsi onu həmin zirvəyə sövq-təbii yüksəldir. Bir şərtlə ki, əgər o xəzinə zəngindirsə.**

Azərbaycan ədəbiyyatının ölməz nümayəndələrinin yaradıcılıq xəritəsi şifahi xalq ədəbiyyatından, daha sonra isə ulu Dədə Qorquddan üzü bəri sonuncu ədəbiyyat yaradan nümayəndəsinə qədər uzun bir yolun işığında bizi aydınladır. Bu aydınlıqda hər kəsin boyu, görkəmi, fəlsəfi qüdrəti, poetik gücü xəritə boyu öz yerini müəyyənləşdirir. Bu günlərdə hədiyyə aldığım "Salam olsun" adlı bir şeir kitabı, tarixin qədim səhifələrindən bu günə qədər uzanıb gələn ədəbi xəritəmizin silinməz səhifələdrindən birində özünə yer tuta biləcək bir ilhamla məni salamladı, kitabxanama daxil oldu və kitabxanamı zənginləşdirdi. Odur ki, mən də həmin salama, "Əleykümsalam...!" - deməyi, özümə borc bildim. Ən əsası isə ondan ibarətdir ki, kitabdakı şerilərin hər biri məni "əleykümsalam"- deməyə vadar etdi. Şeirlərin bədii keyfiyyəti, poetik səviyyəsi və vətənpərvərliklə cilalanmış məzmunu, həmin şerilərə biganə qalmağa imkan vermədi. Bu qədər vətənpərvər bir şairin, bu qədər vətən sevgisi ilə ürəyinin şamını əridən bir ananın şerilərini su içimi kimi içməmək olmadığı üçün kitabı birnəfəsə oxudum. Oxuduqca, şairin tükənməz ilhamla qələmə aldığı şeirlərin hər biri vətənpərvər ruhuma yeni ruh qatırdı. Şair qəlbinin ana ürəyi ilə çırpınan vətəndaşlıq mövqeyinin zirvələrə yüksələn böyük təbi və qaynar ilhamı hər şeiri ilə ürəyimdə coşqu yaradırdı. Vətəni bu qədər böyük məhəbbətlə sevən Azərbaycan şairinə eşq olsun! - bu alqış, könlümdən qopan səmimi duyğudur. Kitabı oxuyub bitirdikdən sonra, müəlliflə ilk görüşümüzü xatırladım. "Nəsimi ili" çərçivəsində C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrının səhnəsində hazırladığım, müəllifi olduğum "Haqq mənəm" əsərinin tamaşasında İmadəddin Nəsiminin işığına toplaşmışdıq. Tamaşadan sonra əsər haqqında və ümumən Nəsimi yaradıcılığı ilə bağlı tamaşadan aldıqları təəssüratları bölüşən mütəxəssislər sırasında onun da dəyərli, səmimi fikirlərini dinləmişdim və xoş təsir bağışlamışdı.

"Salam olsun" kitabı, Azərbaycan ədəbiyyatında mühüm yer tutan qadın şairlərimizdən birinə, Mahirə xanım Nağıqızına mənsub şeirlər toplusudur. Bu toplu özünün bədii keyfiyyəti, poeziya qüdrəti ilə yanaşı, həm də, məzmun mahiyyəti ilə həddindən artıq diqaqətçəkəndir. Kitabda sanballı bir şairin həssas hissləri, həlim duyğuları ilə yanaşı, onun ülvi məfkurəsi, düz əqidəsi, dərin idrakı, nurlu zəkası, geniş təfəkkürü, qaynar təxəyyülü, bütün bunlarla yanaşı saf vicdanı, böyük vətənpərvərlik ruhu ilə tükənməz VƏTƏN eşqi, bir də, Tanrıdan gələn poetik əfsunu öz heyranediciliyi ilə oxucuya şeirlərini birnəfəsə oxumağa sövq etdirir. Müəllif, kitaba məxsusi olaraq, əsasən, VƏTƏN eşqli şeir nümunələrini, vətənpərvərlik ruhunu yüksəldən poetik tablolarını daxil etmişdir. Bütün ruhu və könlü ilə Azərbaycan sevdalısı olduğunu ifadə edən bu poeziya nümunələri ilə, bir kitabda, Mahirə xanım bütün Türk aləminə, öz soydaşlarına SALAM OLSUN!- deyə, səslənir. Həm də elə bir zamanda ki, millətimiizi dünyanın dörd tərəfindən məngənə arasında sıxmaqdan əl çəkməyən böyük güclərə qalib gəldiyimiz bir zamanda. Otuz ilə yaxın bir müddət ərzinə xalqımızı və millətimizi məcburən məğlub kökünə salan haqsızlsara qarşı Ali Baş Komandanımızın rəhbərliyi altında haqq mücadiləsinə qalxdığımız və zəfər bayrağını mənfur düşmən üzərində dalğalandırdığımız bir vaxtda. Belə anlarda yaradıcı insanlar hisslərini öz bədii qüdrətləri ilə ifadə etməklə, vətəndaş mövdelərini göstərir, övladlıq, vətəndaşlıq borclarını yerinə yetirir, həqiqətin tablosunu poetik dillə təcəssüm etdirməyə çalışırlar. Məhz "Salam Olsun" kitabının müəllifinin də şair ürəyi öz tükənməz ilhamı ilə qaynayır, hüdudlara sığmayan VƏTƏN eşqi coşur və onu Tanrı qədər uca tutacaq bir məhəbbətlə sevdiyini bəyan edir:

***Azərbaycan -***
***Baş əydiyim Tanrı.***
***Sənə kömək olsun,***
***Anamın duaları.***

Vətəni bu qədər müqəddəs zirvəyə ucaldan, onu Tanrı qədər ali dəyərlərə malik fenomen kimi tərənnüm edən müəllif, bununla da, öz idrak fəlsəfəsinin hikmətini ifadə edir. Müəllifin vətənə olan belə dərin məhəbbətini gördükdən sonra, hesab edirəm ki, minillik dərdləri bütün ruhu ilə yaşayan və dərmanını bulmaq üçün heç vaxt pəs etməyən bir millətin bütün övladları, öz ruh yüksəkliyi ilə məhz hər zaman yaşamaq eşqini özündə qoruyub saxlamalı və böyük anlamda VƏTƏN sevdasından bir an belə, ayrılmamalıdırlar. Bu sevdanın fəlsəfi dırinliyini dərk etməyə çalışmalı, onu əbədi məhəbbətlə sevməlidirlər. Böyük bir millətin ürəyinin səsini susmadan hayqıran Mahirə xanımın misralarında olduğu kimi:

***Azərbaycan -***
***Göyərən ümidlərim.***
***Dərmanı, davasısan,***
***Min illik dərdlərimin.***

Müəllifin "Salam olsun" kitabında cəmlənən şeirləri təpədən dırnağa qədər oxucunu Vətən eşqi ilə ruhlanmağa, Vətən uğrunda döyüşməyə, Vətən, torpaq fəlsəfi hikmətinin mahiyyətini dərk etməyə və onu candan əziz tutmağa, Vətənin əvəzsiz olduğunu əxs etməyə və təlqin etdirməyə çağırır. Mahirə xanım həm bir ana olaraq, həm də bir şair kimi Azərbaycan övladlarını torpaqlarımızın azadlığı uğrunda zəfər cənginə qalxmağa, şanlı yürüşə səsləyir:

***Komandanın özü verib dəyər sənə,***
***O güvəndi, arxalandı, ey ər, sənə.***
***Milyonlarını gözü baxır, əsgər, sənə,***
***Bu məqamdır, zəfərini çalmağa get.***




Mahirə xanımın bu kitabda yer tutan bütün şeirləri ANA qəlbinin, ANA ürəyinin məlhəmi ilə yoğrulur, o qaynar ürəyin istisinə isinir və oxucusunun ruhuna qida verir. Ümumiyyətlə, ANA ürəyi hər zaman Mahirə Nağıqızının şeirlərində sövq-təbii olaraq ön plana qədər yüksəlir, oxucuya məlhəm olmağa çalışır.

Baxın, Vətən uğrunda şəhid olan övladlarımızın qəhrəmanlığını bir Azərbaycanlı şair - ananın şah damarında axan qanı hansı cöşqu ilə nəzmə çəkir və necə oxşayır:

***Analar ər doğar, oğul böyüdər,***
***Hər oğul dünyası - nağıl, böyüdər.***
***Torpağı sevərlər analar qədər,***
***Düşmənin qəddini bükər şəhidlər...***

və ya,

***Özü qocalmaz ki, əsri qocaldar,***
***Gələcək, gedəcək nəsli qocaldar.***
***Qəlblərdə vətənə heykəl ucaldar,***
***Azadlıq ağacı əkər şəhidlər.***

Mahirə xanım üçün ŞƏHİD anlayışı təkcə vətən uğrunda candan keçməkdən ibarət deyildir, əsaən, vətənə böyük sevgi ilə bağlılıqdan keçən bir məhəbbətin, sönməz eşqin qüdrəti ilə heç "of" demədən canını vətənin yaşaması uğrunda cəsarətlə qurban verməkdən keçən bir qalibiyyət vəzifəsidir. Ümumiyyətlə, Mahirə xanımın şeirləri göstərir ki, onun ruhu daim cöşub-daşan mübarizə əzmindədir.

Bir şair üçün isə, belə ruh, əvəzsiz bir sərvətdir. Ona görə də, şair - ana Vətən sevgisi ilə yaşayan, Vətən üçün cəsarətlə canından keçən qəhəman igidlərimizi ağlamamğı, sızlamamağı, əksinə, onların ruhlarının şad olması üçün qürurla dayanmağı, mübariz olmağı tövsiyyə edir:

***Vətən, qurbanınam - üzdə demədi,***
***Əməldə göstərdi, sözdə demədi.***
***Mahirə, ağlamaq, sızlamaq nədi,***
***Sənin göz yaşəndan küsər şəhidlər.***

Ana ürəyinin simfoniyası övlad, bala nəğməsi ilə havalanar. Çünki, ananın bətnindən doğulan varlıq, onun simfoniyasıdır. Bu hikməti, bu fəlsəfəni daim uca tutan ana qəlbi şəhidlik zirvəsinə yüksələn övladalrı bir nəğmə kimi yad edər, şəhidlik zirvəsinin üfüqlərindən boylanan gözəgörünməz baxışlarına ehtiram olaraq həmin nəğməni öz ürəyinə daima səslənər. Mahirə xanımın səsləndiyi kimi. Çünki onların məzarı vətənin istehkamıdır:

***Yerə qan tökdülər, ruh göyərtdilər,***
***Tarixi yazdılar Vətən daşına.***
***Minillik xalqlara dərs öyrətdilər,***
***Bu ərən oğullar cavan yaşında.***

və ya,

***Boy vermiş məzarın qəbir daşları,***
***Bir ömrün daşlaşan arzu - kamıdır.***
***Onların sağlığı döyüşən əsgər,***
***Məzarı - Vətənin istehkamıdır.***

Nağıqızının Qarabağ haqqında yazdığı "Salam" şeirindəki misralarda şair ürəyinin, ana qəlbinin can yanğısı oxucunun içini göyüm-göyüm göynədir. Otuz il bundan əvvəl tapdağa düşmüş Qarabağ bir andaca gözlər önünə gəlir.

Biz o zamanlar Qarabağa yalnız uzaqdan boylanardıq. İçimizdə kükrəyən hiddət içimizi təlatümə gətirərdi. Uzaqdan göndərilən salamın göynərtisinə dözmək mümkün deyildi. Lakin indi biz Qarabağa salamı, onun qoynuna vararaq söyləyə bilirik. Ona görə də şeiri oxuduqca həsrətli günlərin göynərtisi yada düşür və qaysaq bağlamış yaralar sızlayır, hazırkı sevinc hisslərinə qovuşaraq çılğın bir həyəcan yaradır :

***Dönüb başına dolannam,***
***Salam, Qarabağım, salam.***
***Qadan allam, balan allam,***
***Salam, Qarabağım, salam.***

yaxud,

***Mahirə sevincdən ağlar,***
***Sinəsində ümman çağlar.***
***Dinər saza həsrət dağlar,***
***Salam, Qarabağım, salam.***

Bir başqa şeirində isə müəllif, Qarabağa olan sevgisini ən gözəl və ən duyğusal hisslərlə belə şəkilləndirmişdir:

***Mahirədir mənim adım,***
***Dedim Qarabağ! - ağladım,***
***Qəlbim ilə qucaqladım,***
***Diləyi əllərdi yazan...***

Ümumiyyətlə müəllif, kitabda , Vətən kontekstində Qarabağ mövzusuna geniş yer ayırmışdır. "Salam olsun" seirinin biri Qarabağdakı döyüşlərin azman qələbəsindən ruhlanaraq qələmə alınmıdır. Haqq işimizə dəstək göstərən Türkiyə Cümhuriyyətinin, onun liderinin və türk qardaşlarımızın həmrəyliyini vəsf edən bu şeirdə Nağıqızının şair duyğuları daha da cövlana gəlir və ikinci Qarabağ savaşında, bütün dünyanı önünə alaraq bizə böyük dəstək göstərən Türkiyə dövlətinin əzmini, təəssübkeşliyini və qardaşlığını, həmrəyliyini tərənnüm edir:

***Nağıqızı, az de, deyin,***
***Qardaş verər dərdə çiyin.***
***Kəlbəcərdə mehmetciyin,***
***Salamına salam olsun.***

**Əziz oxucu, razılaşmalıyıq ki, "Salam" məvhumu müqəddəs varlığın adı ilə bağlı olduğu üçün, o məvhumda bir doğmalıq, qovuşma, birləşmə, həmrəylik, birlik və bütövlük, eyni zamanda məfkurəni zəfərə yüksəldən bir hikmət var. Ona görə də məhz Mahirə xanım "Salam" fəlsəfəsi ilə yola çıxaraq, kitabın məzmununa xeyli zənginlik gətirmişdir. Kitabda bənzər mövzuları fərqli deyimlərlə tərənnüm edən şair, üç şeiri "Salam olsun" adlandırmışdır. Bundan başqa, ayrıca, "Salam" adlandırdığı şeirində də müəllif bizi məhz eyni ovqatla birliyə, bütövlüyə qovuşmağa səsləyir.**

**(ardı 8-ci səhifədə)**

## "Bədii düşüncədə Qarabağ"




*Tanınmış yazıçı, publisist Zemfira Məhərrəmlinin yeni kitabı nəşr olunub. "Bədii düşüncədə Qarabağ" adı nəşrdə müəllif ədəbi simaların yaradıcılığında Qarabağ mövzusunun inikasını araşdırıb. Bu müqəddəs mövzu və onunla bağlı yaranmış çağdaş ədəbiyyatımız ilk dəfə olaraq bu kitabda geniş miqyasda təhlilə cəlb edilib. Kitab Zemfira Məhərrəmlinin sayca on beşici kitabıdır.*

*Emin*

## Yazıçı şəhid və qazilərimizə kitab ithaf etdi




**İstedadlı həkim-yazıçı kimi yaradıcılığı son illərdə ədəbi ictimaiyyətin və feysbuk istifadəçilərinin diqqət mərkəzində olan Hümbət Həsənoğlu (Quliyev) oxucularını yeni çapdan çıxmış "Mesaj" kitabı ilə sevindirməkdədir.**

İlk gündən yaradıcılıq üslubu, həyata öz fərdi, qeyri-adi baxışı, orijinallığı ilə seçilən yazıçının yeni kitabına maraqlı hekayələr, esse, oçerk və novellalar, bugünümüzdən götürülmüş həyati-fəlsəfi rəvayətlər daxil edilmişdir. Müəllif bu əsəri Vətən müharibəsinin şəhid və qazilərinə ithaf etmişdir. Sumqayıtın "Azəri" poliqrafiya müəssisəsində çap edilmiş kitabın redaktoru şərqşünas-filoloq, nəsimişünas, Vüsal Hətəmovdur. Sumqayıt Dostlar Klubunun təsisçisi və sədri olan Hümbət Həsənoğlunun indiyədək "Qanun" nəşriyyatında çap edilmiş 4 kitabı ("Statusman", "Kəpənək xoşbəxtliyi", "Aforizmlər", "Hümbət Həsənoğlunun aforizmləri-2"), "Azəri" poliqrafiya müəssisəsində "Son Təbəssüm" və qardaş Türkiyədə "Kelebek mutluluğu" ("Kəpənək xoşbəxtliyi") və "Aforizmalar" adlı iki kitabı oxucular tərəfindən maraqla qarşılanmışdır. Yazıçının artıq bir-neçə kitabı rus dilinə tərcümə olunmuş, Cənubi Azərbaycandakı soydaşlarımız üçün əski əlifba ilə çapa hazırlanmışdır. Onun əsərləri hazırda digər dillərə də tərcümə edilir.

**Emin**

## Ünlü aparıcıdan ərinə ad günü sürprizi: Orkestrli paylaşım...

**Aparıcı Xoşqədəm Baxşəliyeva həyat yoldaşı, tanınmış türk müğənnisi Doğuşun ad günü münasibəti ilə öz sossial şəbəkə hesabında belə bir paylaşım etmişdi:**

**"Dəyərli dost, həyat yoldaşı, əsl insan... Nə yaxşı ki, bu gün doğuldun. 17 yaşına kimi "Kaş ki heç doğulmasaydım" demisən. Amma Allah o çətinliklərdən sonra sənə xəyalını belə qurmadığın həyatı**



**bəxş edib. Heç zaman keçmişini unutmadın. Hər zaman köməyə ehtiyacı olanların yanındasan. Bu gün də mənimləsən. Sən dərdimi söylədiyim dostumsan, yaxınımsan, həyat yoldaşımsan. Nə yaxşı ki, anan səni dünyaya gətirib. Ad günün mübarək həyatım. Allah hər zaman köməyin olsun, səni pis insanlardan qorusun".**

Ümumiyyətlə, ünlü aparıcı ünlü müğənni ərini hər zaman ad günü münasibəti ilə təbrik edərkən fərqliliyi nəzərə alıb.

Hətta o, ad günlərinin birində Doğuşa təriflər yağdırıb, onun necə sevdiyini bildirib: "Sən dünyanın ən xoşniyyətli, mərhəmətli insanısan. Bəzən ətrafdakılar sənin göstərdiyin hörmətini, mərhəmətini, xoş niyyətini başa düşmürlər. Daha doğrusu sənin bu halından istifadə edirlər. Ancaq sən bütün olanları bildiyin halda bu xüsusiyyətindən əl çəkməzsən. Məhz bu halın üçün səni daha çox sevirəm. Çünki mən sənin kimi qarşımdakının pis niyyətli olduğunu görüb, onu bağışlamağı bacarmıram".

Onların ailəsində bu gün xoş gündür.

Adalet.az xəbər verir ki, aparıcının türk həyat yoldaşı Doğuşun doğum günü münasibət ilə sosial media hesabında ailəsi ilə birlikdə görüntüləndiyi foto paylaşaraq Doğuşu təbrik edib.

Bundan əlavə ona sürpriz etdiyi videonu da "İnstagram" hesabında paylaşıb. Videodan görünür ki, yuxudan duraraq pilləkanlardan enən Doğuş evin zalında nəfəsli orkestri görərkən çaşıb qalıb. Xanımının növbəti sürprizinin xoşuna gəldiyini üzünün ifadəsindən bəlli edir.

**İzləyiciləri də Xoşqədəm Hidayətqızına qoşularaq səbəbkara xoş sözlər yazıblar.**

**Əntiqə**



RƏŞİDƏ ARİF

### ŞUŞA

*Uzun zaman yad əllərdə*
*Viran oldun o illərdə.*
*Adın daima dillərdə,*
*Artıq müstəqilsən, Şuşa!*

*Yurdumun gözəl diyarı,*
*Çoxdu şair, bəstəkarı.*
*Xan qızının yadigarı,*
*Bülbülün səsisən, Şuşa!*

*Məşhur olub Cıdır düzü,*
*Buranın sənəti, sözü.*
*Sən Qarabağımın özü,*
*Ayrılmaz hissəsən, Şuşa!*

*Səslənir zəfər nəğməsi,*
*Şuşanın qayıdış səsi.*
*Sevindirir duyan kəsi,*
*Doğma elimizsən, Şuşa!*

*Dağlarında xarı bülbül*
*Bitər yenə o nəcib gül.*
*Firavan qal, abad görül,*
*Hər zaman bizimsən, Şuşa!*

### ÜÇRƏNGLİ BAYRAĞIM

*Ölkəmin atributu,*
*Dövlətçilik sübutu -*
*Üçrəngli bayrağımdır,*
*Şanım, ucalığımdır.*

*Mavi, qırmızı, yaşıl,*
*Ay-ulduz işıl-işıl.*
*Dövlətin nişanəsi,*
*Birliyin işarəsi.*

*Qürur ilə dalğalan,*
*Yüksəklərdə ol hər an.*
*Ey üçrəngli bayrağım,*
*Fəxr eləsin torpağım.*

### QARABAĞ BİZİMDİR

*Hər yerdə asılıb üçrəngli bayraq,*
*Qovuşduq, axır ki, gözəl Qarabağ!*
*Deyirik aləmə səs-küy salaraq:*
*"Qarabağ bizimdir, Azərbaycandır!"*

*Torpaqlarımızı alaraq geri*
*Unutduracağıq ötən illəri.*
*Bu dövlət yaranan ilk gündən bəri*
*Qarabağ bizimdir, Azərbaycandır!*

*Başında çox bəla tüğyan elədi,*
*Xalqımız hər zaman, bil, səninlədi.*
*Dəyişməz qalacaq, daim belədi-*
*Qarabağ bizimdir, Azərbaycandır!*

*Çiçəkli yurdumuz, şən baharımız,*
*Nəğmə sənətində tək diyarımız.*
*Doğma torpağımız, dik vüqarımız-*
*Qarabağ bizimdir, Azərbaycandır!*

### ŞƏHİDİN SEVDİYİ

*Soyuq qış gecəsi, o dəhşətli an,*
*Qızğın döyüşlərin getdiyi zaman*
*Oynadı mərmilər, toplar yerindən,*
*Ayırdı onları biri-birindən...*

*...Günlərdi gözləyir səssiz-səmirsiz*
*Sevdiyinin yolun xəbər-ətərsiz...*
*Vəfanın gözləri yolda qalıbdı,*
*Baxıb pəncərəyə fikrə dalıbdı.*

*Onların arzusu, ümidi vardı,*
*Hamısı bir anda puç olub qaldı...*
*Evlənib, toy-düyün quracaqdılar,*
*Dünyanın xoşbəxti olacaqdılar...*

*O, son məktubunda yazırdı belə:*
*"Görüşə bilməsəm daha səninlə,*
*Əzizim, bağışla məni, nə olar,*
*Vətənin bizə çox ehtiyacı var..."*

*Həmin gün sevdiyi şəhid olmuşdu,*
*Hamı hüzn içində,sanki donmuşdu...*
*...Aradan nə qədər vaxt ötüşsə də,*
*Hər şeyə alışsa belə get-gedə,*
*Könlünü vermədi Vəfa kimsəyə,*
*Böyük ehtiramı var idi deyə,*
*Sevdiyi insanın xatirəsinə,*
*Ömürlük yazmışdı onu qəlbinə.*

*Darıxanda gedər məzarı üstə,*
*Toplayıb əlində çiçək bir dəstə.*
*Yaşarar baxdıqca dolu gözləri,*
*Astadan duyular onun sözləri:*
*"Keçsə aylar, illər, ömrü uzunu*
*Sadiqin Vəfası unutmaz onu..."*

### POLAD HƏŞİMOV

*Aprel döyüşləri baş verən zaman*
*Şücaət göstərib vuruşdun hər an.*
*Tovuz döyüşündə keçdin canından,*
*Qəhrəman general Polad Həşimov!*

*Sadəlik var idi hər zaman səndə,*
*Hörmətin böyükdü alay içində.*
*Allahına bağlı,imanlı bəndə,*
*Nur üzlü general Polad Həşimov!*

*Vətənə gərəkdir belə oğullar,*
*Sizə bata bilməz əsla yağılar.*
*Sənin kimiləri tək-tək doğular,*
*Qüdrətli general Polad Həşimov!*

*Sarsıtdı bizləri ölüm xəbərin,*
*Şəhadətə yetdin,cənnətdir yerin.*
*Tarixdəki izin silinməz,dərin,*
*Dəyərli general Polad Həşimov!*

*Əsgərlərə oldun daima yoldaş,*
*Kimisinə ata,kiminə qardaş.*
*Məqamın mübarək,böyük vətəndaş,*
*Hörmətli general Polad Həşimov!..*

### BİR ŞƏHİD ÖVLADI

*Bir şəhid övladı gəlib dünyaya,*
*Yanında əzizi, doğmaları var.*
*Atasız göz açan körpə balaya*
*Hələ agah deyil heç bir olanlar.*

*Ey şəhid övladı, ey məsum mələk,*
*Sənin o qəhrəman atan bəs hanı?!*
*Çalışıb onuntək olasan gərək,*
*Böyü, düşmənini, dostunu tanı.*

*Azad Vətənində sən doğulmusan,*
*Ruhu şaddır şəhid ataların da.*
*Sən igid oğlusan, sən ər oğlusan,*
*Şəhid qanı axır damarlarında...*

# "SALAM OLSUN" KİTABINA - SALAM

**(əvvəli 7-ci səhifədə)**

"Salam olsun" məfkurəsi ilə yola çıxan Mahirə Nağıqızının qəlbindəki Vətənə olan sevgisi, eşqi parlaq şəkildə göstərir ki, bu sevda ovuc boyda bir ürəyin sərhədləri çərçivəsində məhdudlaşmır. Geniş arealda qanad açıb, məsafələr qət edir. Böyük Azərbaycan arzusu ilə çırpınan ürəyinin durmadan döyündüyünü göstərir. Vətən haqqında yazdığı bütün şeirlərində onun Vətənə olan sevgisinin təkcə bir vətəndaş, insan, ana sevgisi ilə hüdudlanmadığını görürük. Yüksək amallarla yaşayan, böyük Vətən sevdası ilə ürəyi durmadan döyünən Mahirə xanımın düşüncəsindəki VƏTƏN anlayışı, onun həyat və əqidə məsələsidir:

*Bitər sərhədlərin bu yer üzündə,*
*Qəlbimdə sərhədin nədən bitmədi?*
*Gəmisən, üzürsən eşq dənizində,*
*Sənə məhəbbətim, Vətən, bitmədi.*

Bir başqa şerində:

*Dizinə döymə, dözmərəm,*
*Qaralar geymə, dözmərəm.*
*Yurdumda oğlun var, Vətən,*
*Qəddini əymə, dözmərəm.*

- deyə, fəğan qoparır.

Mahirə xanımın kitaba daxil etdiyi, yanğı ilə dolu Vətən sevdalı bayatıları da orijinaldır:

*Sinəmdə oxum Vətən,*
*Gecələr yuxum Vətən.*
*Mənsiz də otun bitər,*
*Mən sənsiz yoxam, Vətən.*

Dediyimiz kimi, "Salam olsun" kitabının məfkurəsi, bir şair qəlbinin Vətən sevgisini, yüksək poetik duyğularını təcəssüm etdirən bədii topludur. Bu topluda şair - ananın Vətənə olan məhəbbəti müxtəlif rakurslardan boy verir, qanad açır, geniş fəzada göz işlədikcə uçur. Milli ruhu, milli məfkurəni, milli-mənəvi dəyərləri heç bir fenomenə dəyişməyən Mahirə Nağıqızı üçün, Vətən qədər, Ana Dili də keçilməsi mümkün olmayan sevgiyə layiq bir fenomendir. Ana dili məhz elə, Ana Vətən deməkdir! Ona görə də şair - ana "Ana dilim" şeirində soyumuzu, kökümüzü məhz Ana Dilinə əmanət edir:

*Bu dünyanın yaşı qədər tarixin var,*
*Sonu qədər, başı qədər tarixin var,*
*Dağı qədər, daşı qədər tarixin var,*
*Ha baş vursam bitməz qatı, ana dilim,*
*Dədəm-babam amanatı, ana dilim.*

"Tapşırar" şeirində isə soya, kökə bağlılığın hikmətini, nəsillərin davam etdirilmə fəlsəfəsini bir başqa cəhətdən nəzm edir:

*İnsan gedər diləyiylə,*
*Halal duzu, çörəyiylə.*
*Oğul olan əməliylə,*
*Adını ada tapşırar.*

"Göyərər" şeirində də məhz, milli bütövlüyün, milli gerçəkliyin həqiqətləri, doğma vətənin əbədilik kriteriyası şair qələmindən ehtirasla süzülür:

*Süzülməsə zirvəsindən bir dağın,*
*Quruyacaq suyu olmaz irmağın.*
*Ər qanından su içməyən torpağın,*
*Nə o başı, nə bu başı göyərər.*

"Salam olsun" məcmuəsində gözdən qaçmayan bir səmimiyyət öz poetik təcəssümü ilə diqqət çəkir. Vətən ehtirası ilə döyünən ürəyin şah damarında qaynayan, milli ruhla pərvazlanan, gen-geniş fəzanın sonsuzluğuna qədər uçmağa cəhd edən Ana - şair duyğuları, Vətəninə, millətinə olan öz sevgisini bir də, "Dua" şeirində, könlündən qopan alxışları, duaları ilə qanadlandırır:

*Xoş əməldə bitəninə,*
*Hay-haraya yetəninə,*
*Sağ canını vətəninə*
*Qıyanına kömək olsun!*

və

*Mahirə bir şər vədəsi*
*Səslənər, titrəyər səsi.*
*Kimdisə qərib yiyəsi,*
*Həyanına kömək olsun!*

Bütün ruhu və canı ilə doğma vətəninə bağlı olan və onunla nəfəs alan Mahirə Nağıqızının tək bir amalı vardır - milli dəyərlərlə, vətənə sevgi və məhəbbətlə, dövlətə və dövlətçiliyə sədaqətlə, milli atributlara dərin sayğı ilə yaşamaq, yaratmaq! Həqiqətlərimizin qorunması, haqqa söykənən əməllərimizin ləyaqətlə yaşaması, bayrağımızın daim zəfərlə dalğalanması Mahirə xanımın ən müqəddəs arzularındandır. "Bayrağımız" şeiri qeyd olunanları daha məzmunlu şəkildə ifadə edir:

*Çöhrəsidir arzuların,*
*Bizi aparan yolların.*
*Haqq səsidi milyonların,*
*Haqdan doğan bayrağımız.*

Bütün ürəyinin çırpıntıları, hisslərinin, duyğularının həssasiyyəti ilə yazdığı "Salam olsun" kitab toplusuna daxil etdiyi şeirlərində öz vətəndaşlıq mövqeyinin hüsnünün poetik tablosunu yaradan Mahirə xanım Nağıqızı Qarabağın zəfər cəngisinə rəvac verən ölkə rəhbərimizin müqəddəs mətləbini müxtəlif şeirləri ilə son dərəcə böyük rəğbətlə tərənnüm etmişdir. Heç kəsə qaranlıq deyil ki, biz otuz il ağır təzyiqlər altında yaşamışıq. Öz haqqımızı sübut etmək üçün nə qədər mücadilə etsək də, həmişə nahaqq duruma salınmışıq. Hətta qırx dörd günlük savaş zamanı belə, dünyanın ən qüdrətli dövlətləri Azərbacanımızı təkləməyə qalxdılar. Mənfur düşməni doğma torpaqlarımızdan qovmağımıza maneçilik törətməyə çalışdılar.

Düşmənin silahlanması üçün saysız-hesabsız maşın karvanları ilə silahlar göndərdilər . Hər tərəfdən, hər cür hücuma keçdilər. Lakin bu gərgin savaşda təmkinlə qərarlar qəbul edən, dünya qarşısında istər siyasi-ideoloji baxımdan, istərsə də hərbi-taktiki cəhətdən bütün üstünlükləri ilə diqqət çəkən Ali baş komandanımızın cəsarəti və ytüksək sərkərdəlik qüdrəti hər bir həmləni anındaca dəf etdi. Hücuma qalxan hər kəsi mat vəziyyətinə saldı. Nəhayətdə doğma torpaqlarımızı, gözəl Qarabağımızı yağı düşmənin əlindən zorla qopararaq özümüzə qaytardı. Bu uğurları diqqətlə müşahidə edən və biganə qalmayan Mahirə xanımın, ulu öndər Heydər Əliyev ideyalarını qəhrəmancasına yaşadan Ali baş komandanımıza olan rəğbəti və Heydər Əliyev fenomeninə olan sonsuz məhəbbəti "Salam olsun" şeir kitabında, bir neçə şeirdə poetik qüdrətlə, qabarıq şəkildə təcəssüm olunur. Coşqun şair ürəyinin dövlət rəhbərinə olan sonsuz rəğbətini tərənnüm edən həmin mənzərə poeziyanın kəhkəşanına "Görünür" şeiri ilə belə həkk olunmuşdur:

*İlham yazdı yeni dövrü, zamanı,*
*Odur xalqın ümid yeri, gümanı.*
*Bu millətin tarixinin hər anı,*
*Heydər baba dastanından görünür.*

Əziz oxucu, diqqətinizə təqdim etmək istəyirəm ki, haqqında daha geniş danımaq imkanı verən, lakin qısaca olaraq söz açdığım "Salam olsun" kitabının ön söz müəllifi, istedadlı qələm sahibi, əziz qələmdaşım və qardaşım Firuz Kazımoğlu kitaba daxil edilmiş bütün şeirləri geniş şəkildə təhlil etmiş, hər bir şeirin məziyyətini, bədii keyfiyyətini, poetik qüdrətini ədəbiyyatşünas nəzərləri ilə süzgəcdən keçirmiş, onun, ədəbi mühitdə yerini müəttənləşdirmişdir. Ön sözünün yekunuda yazdığı bu fikirlə mən də tam razıyam ki, "...əminik ki, kitabı oxuyan hər kəs bu kitabdakı şeirləri Vətənin bütövlüyü uğrunda qanlı döyüşlərə girərək ya şəhid, ya da qazilik ucalığına qalxmış insanlarımız üçün əbədiyyət nəğmələri kimi qəbul edəcəklər"... Və Mahirə Nağıqızının şeirlərinin Azərbaycan ədəbiyyatında qadın şairləri sırasındakı mötəbər yerini görəcəklər.

**"Salam olsun" kitabına, Salam, deməklə, bu kitabdakı ruhuma pərvaz verən şeirlər üçün Sizə minnətdarlığımı bildirir və davamlı olmasını arzu edirəm, əziz Mahirə xanım.**

## TƏBRİK



**Dünən Cahid Zahid oğlu Rəfibəylinin 7 yaşı tamam oldu. Bu münasibətlə Cahidi və onun valideynlərini ürəkdən təbrik edir, o ailəyə gözəl günlər və övlad uğurları arzu edirəm. Mən bir sinif yoldaşı olaraq Cahidi, xüsusilə onu dünyalarca sevən anasını təbrik edərək, demək istəyirəm ki, Cahid hamımızın çox istədiyi bir oğuldur. Bu oğulla fəxr etmək olar. Doğum günün mübarək, Cahid!**

**Hörmətlə, sinif yoldaşın Nigar Anar qızı Sadıxova.**
**Təbrikə Nigarın bütün ailə üzvləri də qoşulur.**

## Müğənni Ayan gəlinlikdə: Ərə gedir?..



**Yadınızdadırsa müğənni Ayan Babakişiyeva "Söz Baz" verilişində açıqlama vermişdi. Açıqlaması da hamını marağa salmışdı. O , xüsusi vurğulamışdı ki, ona evlilik təklifi edilib:"Evliliyə ciddi yanaşdığım üçün təklifi qəbul etmədim. Çox istəyirəm ki, xoşbəxt ailəyə sahib olum. Bu mənim saf, ən böyük arzularımdan biridir. Əsl ailə olsun".**

**Bu açıqlamadan heç bir ay da keçməmiş müğənninin sosial şəbəkədəki yeni görüntüsü hamının təəccübünə səbəb oldu. Adalet.az xəbər verir ki, müğənni ağğappaq gəlinlikdə çəkilən fotosunu sosial şəbəkə hesabında paylaşıb.**

**Ailə qurmaq arzusundan həmişə söz edən Ayanın belə fotoları onun izləyiciləri tərəfindən müğənninin ikinci dəfə ailə qurması iddialarına inandırıb. Elə həmin gün media mikrafonun silib açıqlama almağa girişdi. Sonda iddianın boş olduğu ortaya çıxdı.**

**Məlum olub ki, bu, müğənninin gəlinlik butiki üçün çəkilişindəndir. Xatırladaq ki, müğənni bir dəfə qeyri -rəsmi olaraq karate üzrə dünya çempionu, polkovnik Füzuli Musayevlə birlikdə olub və ayrılıb. Onların bu birlikdəlikdən bir qızı var.**

**Əntiqə Rəşid**

**Həmidov İlyas Tapdıq oğlunun adına olan şəhidlik vəsiqəsinin həyat yoldaşının adına notariusda təsdiq edilmiş (003943) əsli itdiyi üçün etibarsız sayılır.**

***

**Bəylərov Rəfail Eldar oğlunun adına verilmiş veteranlıq vəsiqəsi (M\V002278) 2019-cu il 3 yanvar tarixində itdiyi üçün etibarsız sayılır.**

***

**Astara rayonu Ərçivan kənd sakini Nəsirov Akif Qurban oğluna 24 noyabr 2003-cu il 06 saylı qərarı ilə verilmiş torpaq sahəsinin plan və ölçüsü AN 4792921 itdiyi üçün etibarsız sayılsın.**

Aqil Abbas **Azər Mustafayevə** qardaşı, filologiya elmləri doktoru, professor

**Məhəmmədəli Mustafayevin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"Ədalət" qəzetinin kollektivi **Azər Mustafayevə** qardaşı, filologiya elmləri doktoru, professor

**Məhəmmədəli Mustafayevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verir.

Nazim Ağamirov, Əbülfət Mədətoğlu, Məzahir Əhmədzadə, Asif Talıboğlu, Babək Yusifoğlu, Rəşid Faxralı, Daşdəmir Əjdəroğlu, Lətif Novruzov, Rüstəm Hacıyev, Nizami Allahyarov və Şamxal Şəbiyev **Azər Mustafayevə** qardaşı, filologiya elmləri doktoru, professor

**Məhəmmədəli Mustafayevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Faiq Qismətoğlu ailə üzvləri ilə birlikdə **Azər Mustafayevə** qardaşı, filologiya elmləri doktoru, professor

**Məhəmmədəli Mustafayevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Aşıqlar Birliyinin sədri, professor Məhərrəm Qasımlı və yazıçı-publisist Səməndər Məmmədov **Azər Mustafayevə** qardaşı

**Məhəmmədəli Mustafayevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Yaşar Nəbiyev, Rəhman Hacıyev, İslam Niftiyev və Hacıbala Talıbov **Azər Mustafayevə** qardaşı, filologiya elmləri doktoru, professor

**Məhəmmədəli Mustafayevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Faiq Qismətoğlu **Süleyman Qaradağlıya anası**

**Bağdagül xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ramiz Məmmədzadə, Rafiq Hacıyev və Aqil Qəhrəmanov dostları, veteran dəmiryolçu

**ADİL İBRAHİMOVun**

vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

AMEA-nın Ədəbiyyat İnstitutunun əməkdaşları Yaşar Qasımbəyli, Zəkulla Bayramlı, Akif Azalp, Qüdrət Mirzəzadə və İbrahim Yusifoğlu filologiya elmləri doktoru, professor

**Məhəmmədəli Mustafayevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**Təsisçi və baş məsləhətçi:**
**Aqil ABBAS**

**Baş redaktor:**
**İradə TUNCAY**

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
**İndeks:0107 Qeydiyyat nömrəsi 100**

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
**Telefon: 538-05-50, 538-51-31. 434-55-98**
**Faks: 539-80-26**
**adaletqezeti@rambler.ru**
**adaletqezeti@mail.ru, adaletqezeti@box.az**

**Tiraj: 2000**
**Sifariş: 111**
Çapa imzalanmışdır: 30.06.2021